www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4-7 oktyabr 2014-cü il Şənbə № 247 (5956) Qiymәti 40 qəpik

**Qurban bayramınız mübarək!**

## Gündəm

### Prezidentlərin Paris görüşü sual altında



Görüş xətrinə görüş praktikasından imtina zamanı çatır; səmərəsiz "qaloçka" siyasəti "Qarabağ yükü"nü yerindən tərpətmək gücündə deyil; rəsmi Bakı, nəhayət, bu yöndə ilkə imza atacaqmı?

yazısı səh.11-də

### Erməni milyonçu-oğru Fransanı bir-birinə vurdu

yazısı səh.9-da

### Qubad İbadoğluna və Vurğun Əyyuba sərt ittihamlar

yazısı səh.5-də

### Tofiq Yaqublu və İlqar Məmmədovla görüşə icazə verilmir

yazısı səh.4-də

### Əməkdaşlarımız Göyçayda toyu yasa döndərən yol qəzasını araşdırdı

yazısı səh.10-da

### Pənah Hüseyndən mitinq açıqlaması

yazısı səh.3-də

*Mehman Əliyev:*

### "Azərbaycan hakimiyyəti Qərblə konfrantasiyaya gedir"

yazısı səh.12-də

### Həbsdəki İslam Partiyasının sədri Qobustana köçürülür

yazısı səh.3-də

### Həsən Həsənovun nəşi bu gün torpağa veriləcək

yazısı səh.12-də

### Daha 4 hicab məhbusu azadlığa buraxılıb

yazısı səh.4-də

### "AMAY Abdulla"nın qohumunu öldürənlərin məhkəməsi başladı

yazısı səh.14-də

### İranlı tələbələrlə bağlı qalmaqala reaksiya gəldi

yazısı səh.15-də

## Rusiya ilə "böyük bazarlıq" sıfırlanma ərəfəsində

# AZƏRBAYCAN PUTİNİN QORXULU PLANINDA

Rəsmi Bakının Qərblə münasibətlərinin qırılma ərəfəsinə gəlməsi ölkəmizi Kreml üçün asan "yem"ə çevirə bilər; Rusiyanın Azərbaycanı rahat qazanması üçün heç vaxt olmadığı qədər şərtlər yetişib



yazısı səh.8-də

# Qərbdən rəsmilərimizə sanksiya tətbiqi çağırışları artır

Kramer və Kozlariç birgə məqalə yazdılar: "Hətta Amerika vətəndaşları və beynəlxalq QHT-lər də bu genişlənən repressiya şəbəkəsinin toruna düşüblər"

yazısı səh.9-da



*Elxan Şahinoğlu:*

### "Kiyevdə Krımdan danışan yoxdur..."

yazısı səh.6-da



### Vahid Ələkbərovun adı "çirkli pul" qalmaqalında

yazısı səh.8-də



### Cəmil Həsənlinin qızını istintaqa çağırdılar

yazısı səh.4-də

## Hacı İbrahim Nehrəmli "Bloomberg" TV-nin qonağı olub



**"Khazar Islands" meqa-layihəsinin rəhbəri Hacı İbrahim Nehrəmli "Bloomberg" TV-nin dəvəti ilə kanalın xəbərlər proqramının qonağı olub. Canlı yayımda layihə barədə ətraflı məlumat verən "Avesta" konserninin prezidenti, proqramın aparıcısı Ali Çağatayın və tamaşaçıların suallarını cavablandırmışdır.**

Həmin verilişin videoyazısına bu linkə daxil olmaqla baxmaq mümkündür.

https://www.youtube.com/watch?v=OsBPN6x0tFg&list=UUVGs-w5oC8-MfU-UPzoPtOPQ

❑ "Avesta" Konserninin mətbuat xidməti

## Rusiyada azərbaycanlı iş adamı həbs olundu



**Moskvanın Şeremetevo hava limanında azərbaycanlı şəxs həbs olunub. Avropa.info xəbər verir ki, Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən aparılan pasport yoxlanışı zamanı azərbaycanlı iş adamı Elşad Hüseynov saxlanılıb. E.Hüseynov əlavə dəyər vergisinin külli miqdarda ödənilməsi ilə bağlı vergi cinayətlərində şübhəli bilinir.**

E.Hacıyevin mənsub olduğu dəstə Solikams şəhəri və Perm vilayətinin Mendeleyev qəsəbəsində özəl tədarükçülərdən topdan taxta-şalban alışını həyata keçirib, daha sonra Azərbaycan, İran, Çin və digər Asiya ölkələrinə ixrac etməklə sistematik olaraq Rusiya Federasiyası büdcəsindən qanunsuz olaraq əlavə dəyər vergisinin əvəzinin ödənilməsini həyata keçirib.

Qeyd edək ki, Elşad Hüseyov Rusiyada yaşayan azərbaycanlılar arasında böyük nüfuzu olan şəxs kimi tanınır. E.Hüseynov Perm vilayətində fəaliyyət göstərən mafiya adamları ilə çox yaxın əlaqələri olub.

Elşad Hüseynov Perm Cüdo Federasiyasının vitse-prezident və vilayət deputatının köməkçisi vəzifələrində işləyib. O, Rusiyada nüfuzlu iş adamı kimi tanınır.

Elşad Hüseynov 100 milyon rubldan artıq məbləğdə vergi mənimsəmələrində şübhəli bilinir.

## Erməni tərəfi itkiləri gizlədir

**"Ermənistanın kütləvi informasiya vasitələri növbəti dəfə özlərinin qeyri-hökumət təşkilatları, sosial medialar vasitəsilə Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında erməni ictimaiyyəti üçün dezinformasiya xarakterli məlumatlar yaymaqda davam edir". Azərbaycan Müdafiə Nazirliyi mətbuat xidmətinin açıqlamasında belə deyilir.**

"Mediaforum" saytının məlumatına görə, açıqlamada bildirilir ki, bu ilin iyul-avqust aylarında erməni kəşfiyyat-təxribat qruplarının Azərbaycan mövqelərinə hücum etmək cəhdlərinin qarşısının alınması zamanı ölü və yaralı olaraq 70-dək itki verən erməni tərəfi Azərbaycan ordusunun vurduğu sarsıdıcı zərbədən hələ də özünə gələ bilməyərək itkilərini gizlətməkdə davam edir: "Ermənistan Respublikasında hakimiyyətə qarşı başlanan kütləvi aksiyalardan, daxili çəkişmələrdən qorxuya düşən İrəvanın cinayətkar hərbi-siyasi rejimi cəbhədə verdiyi itkiləri azaldaraq, əhalinin fikrini yayındırmaq məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin itkiləri və atəşkəs rejiminin pozulması haqqında təxribat və dezinformasiya xarakterli şişirdilmiş məlumatlar yaymaq vərdişindən əl çəkmir.

Müdafiə Nazirliyi rəsmi olaraq bildirir ki, müdafiənin ön xəttində yerləşən bölmələrimiz erməni tərəfinin istənilən təxribatının qarşısını almağa və onu darmadağın etməyə hazırdır. Vətən torpaqlarının işğaldan azad edilməsi uğrunda həmişə döyüşə hazır olan əsgər və zabitlərimiz müdafiə nazirinin əmrinə əsasən şəhid olan və yaralanan hər bir hərbçimizin qisasını düşməndən birə on qat artıqlaması ilə alırlar və bundan sonra da alacaqlar".


## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- ➔ Ali məktəblər xarici dillər
- ➔ kompyuter kursları
- ➔ Magistratura - dövlət qulluğu - məntiq
- ➔ 1.C. mühasibat - anbar - bank işi
- ➔ Məktəbə qədər həftədə 5 dəfə
- ➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# Rəsul Cəfərov "Human Rights Tulip" mükafatına namizəd oldu



**Həbsdə olan azərbaycanlı hüquq müdafiəçisi Rəsul Cəfərovun beynəlxalq "Human Rights Tulip" mükafatına namizədliyi irəli sürülüb.**

"2012-ci ilin dekabrında R.Cəfərov "Demokratiya naminə incəsənət" kampaniyasını təşkil edib. Kampaniya incəsənət vasitəsilə gəncləri ədalətin müdafiəsinə çağırır", - təşkilatın məlumatında deyilir.

R.Cəfərovla yanaşı müxtəlif ölkələrdən 29 nəfər mükafatı almaq üçün təqdim edilib. Qalib seçimi bir neçə mərhələdə keçirilir. Birinci mərhələdə İnternet istifadəçiləri bəyəndikləri namizədə səs verirlər. Sonra müstəqil Münsiflər Heyəti öz seçimini edir. Yekun qərar Niderland XİN tərəfindən qəbul edilir. İctimai səsvermə oktyabrın 10-dək keçirilir.

"Human Rights Tulip" mükafatı 2007-ci ildə Niderland XİN tərəfindən təsis edilib. Mükafat hər il insan haqları uğrunda aparan hüquq müdafiəçilərinə və ya təşkilatlara verilir.

Mükafatın verilməsi mərasimi dekabrın 9-da Haaqada olacaq.

❑ "Turan"

## Sabir Hüseynovun qırx mərasimi oktyabrın 17-də olacaq

**Mərhum Sabir Hüseynovun qırx mərasimi oktyabrın 17-də olacaq.**

Sabir Hüseynov qətlə yetirilmiş jurnalist Elmar Hüseynovun atasıdır. Elmar Hüseynov 37 yaşında, 2005-ci il martın 2-də qətlə yetirilib. İndiyədək cinayətin üstü açılmayıb. 2006-cı ilin sonlarında mərhum jurnalistin xanımı Ruşaniyyə Hüseynova oğlu Aslanla birgə Norveçə mühacirət edib.

Sabir Hüseynov 2014-cü il sentyabrın 8-də 78 yaşında vəfat edib. O, mədəsindəki bədxassəli şişdən əziyyət çəkirdi. Sabir Hüseynov Bakıdakı Qurd qapısı qəbiristanlığında, oğlu Elmarın məzarının yanında dəfn olunub.

**Oktyabrın 3-də "Media forum" saytı Sabiq Hüseynovun qızı - Elmar Hüseynovun bacısı Esmira Hüseynovadan atasının hüzr mərasiminə yardım göstərilib-göstərilmədiyi ilə maraqlanıb. Esmira Hüseynova deyib:** "Heç bir dəstək göstərilməyib. Bunu heç gözləmirdik də, indi də gözləmirik. Kiminsə yardımına ehtiyacımız yoxdur. Bu hər kəsin başına gələcək bir hadisədir. Atam hələ sağlığında qardaşımın məzarı yanında özünə yer götürmüşdü, başdaşı da qoydurmuşdu. Sadəcə qohumlarımız, yaxınlarımız gəldi, qəmimizi bölüşdü. Atamın hüzr mərasiminə başqaları, hətta jurnalistlər belə gəlmədi. Onları heç qınamıram da. Hər kəsin öz işidir, gələr də, gəlməz də. Kim özünü atama yaxın bilirdisə, gəldi".

**Esmira Hüseynova Elmarın Norveçə mühacirət etmiş ailəsinin hüzrdən xəbəri olub-olmadığını bilmir:** "Bizim onlarla heç bir əlaqəmiz yoxdur. Atamın rəhmətə getdiyindən xəbərləri olub-olmadığını da bilmirəm".

## Bayram günlərində hava necə olacaq?

**Oktyabrın 4-dən 7-dək Azərbaycan ərazisində hava şəraitinin əsasən buludlu və yağmurlu olacağı gözlənilir.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosundan verilən məlumata görə, oktyabrın 4-də Bakıda və Abşeron yarımadasında buludlu hava şəraiti üstünlük təşkil edəcək, səhər saatlarında bəzi yerlərdə çiskin olacaq, axşama doğru yağış yağacaq.

Havanın temperaturu gecə 12-14, gündüz 17-22 dərəcə isti olacaq.

Oktyabrın 4-də Azərbaycanın bəzi bölgələrində yağış yağacaq, əsasən Lənkəran-Astara zonasında intensivləşəcək. Qərb küləyi əsəcək.

Aran rayonlarında havanın temperaturu gecə 10-15, gündüz 18-23, dağlarda gecə 1-6, gündüz 6-10 dərəcə isti olacaq.

❑ "TURAN"

## Xədicə İsmayılın məhkəməsi oktyabrın 9-da olacaq



**Oktyabrın 3-də Elman Türkoğlunun jurnalist Xədicə İsmayıla qarşı məhkəmə iddiası üzrə hazırlıq iclası keçirilib. Ərizə baxılmaq üçün icraata götürülüb. Bu haqda AzadlıqRadiosuna Elman Türkoğlunun özü məlumat verib.**

Məhkəmə oktyabrın 9-na təyin olunub.

Prosesə hakim Sədrəddin Hacıyev sədrlik edəcək.

## Dövlət başçısı Masazırda stadionun açılışına qatılıb

**Oktyabrın 3-də Xırdalan şəhərinə səfərini şahmat məktəbinin açılışı ilə başa vuran prezident İlham Əliyev Abşeron rayonunun Masazır qəsəbəsində inşa olunan stadionun açılışına qatılıb. Dövlət başçısına məlumat verilib ki, Masazır qəsəbəsindəki stadion beynəlxalq standartlar nəzərə alınaraq inşa olunub. 13 min tamaşaçı yeri olan bu idman qurğusunda mətbuat, məşqçi, tibb və dopinq-test otaqları var.**

## Demokratik İslahatlar Partiyası 4 jurnalistə mükafat təqdim etdi

**Oktyabrın 3-də Demokratik İslahatlar Partiyasının "Həsən bəy Zərdabi və Nəcəf Nəcəfov ənənələrinin davamı və inkişafı uğrunda" mükafatına layiq gördüyü 4 jurnalistlə bağlı mərasim keçirilib. Laureatlara pul mükafatı və diplomları partiya sədri, deputat Asim Mollazadə təqdim edib.**

2014-cü ildə "Həsən bəy Zərdabi və Nəcəf Nəcəfov ənənələrinin davamı və inkişafı uğrunda" mükafatına uğurlu televiziya layihəsinə görə İctimai Televiziyadan Vəsilə Vahidqızı, Azərbaycanın ictimai-siyasi və sosial həyatında baş verən proseslərin obyektiv işıqlandırılmasına görə "Amerikanın səsi" radiosundan Tapdıq Fərhadoğlu, Azərbaycanda peşəkar internet mediasının formalaşmasındakı xidmətlərinə görə modern.az saytından Əfqan Qafarlı, Azərbaycanın ictimai-siyasi həyatına və parlamentin fəaliyyətinə həsr olunmuş obyektiv məqalələrinə görə mediaforum.az saytından İmdad Əlizadə layiq görülüblər.

Demokratik İslahatlar Partiyası "Həsən bəy Zərdabi və Nəcəf Nəcəfov ənənələrinin davamı və inkişafı uğrunda" mükafatını 2008-ci ildə təsis edib.

❑ ELŞAD

**Başsağlığı**

**Müsavat Partiyasının Mərkəzi İcra Aparatı partiyanın başqanı Arif Hacılıya əzizi Ayşə xanımın vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.**

## Qurban bayramı namazının vaxtı açıqlanıb

**Qurban bayramı namazının nə vaxt qılınacağı açıqlanıb. Qafqaz Müsəlmanları İdarəsindən APA-ya verilən məlumata görə, Bakı şəhərində, «Təzəpir» məscidində bayram namazı oktyabrın 5-də səhər saat 09:00-da qılınacaq.**

Azərbaycanda oktyabrın 4-ü və 5-i Qurban bayramı günü kimi qeyd olunacaq və ölkənin bütün məscidlərində bayram namazı qılınacaq.

## MSK seçki gününü təyin etməyə hazırlaşır

**Dekabrda keçiriləcək bələdiyyə seçkilərinin günü hələ müəyyən edilməyib. Mərkəzi Seçki Komissiyası sədrinin müavini Natiq Məmmədov oktyabrın 3-də "Media forum"a deyib ki, hələ hazırlıq işləri gedir: "Bələdiyyə seçkilərinin günü MSK-nın bir neçə gündən sonra keçiriləcək iclasında müəyyən ediləcək".**

Seçki Məcəlləsinə görə, bələdiyyə seçkilərini Mərkəzi Seçki Komissiyası təyin edir. Qanunla seçki səsvermə gününə azı 60 gün qalmış elan olunmalıdır.

Azərbaycanda son bələdiyyə seçkiləri 2009-cu il dekabrın 23-də olub. Bələdiyyələrin üzvləri nisbi çoxluq sistemi əsasında çoxmandatlı seçki dairələri üzrə seçilirlər. Onların səlahiyyət müddəti 5 ildir.

## Mənsimovun tankerləri İŞİD-in neftini saxta sənədlə İsrailə daşıyır

**• İŞİD-in İraq və Suriyadan oğurladığı neft Türkiyənin Ceyhan limanından ixrac edilir.**

Virtualaz.org saytı xəbər verir ki, bu barədə voltairenet.org internet şəbəkəsində fransalı blogger Tiyerri Meysan yazıb.

T.Meysanın məqaləsində deyilir ki, İŞİD nefti Ceyhan limanında azərbaycanlı milyarder Mübariz Mənsimovun "Palmali Shipping & Agency" şirkətinə məxsus tankerlərlə İsrailə daşınır.

Aşkelon limanında İsrail hakimiyyəti bu neftə saxta sənəd verir və onun Eylat mənşəli olduğunu göstərir. Oradan isə oğurluq neft Avropa İttifaqı ölkələrinə ixrac edilir. Avropada isə onu İsrail mənşəli neft kimi alırlar.

Müəllif yazır ki, İŞİD-dən əvvəl İraqın şimalındakı Kürdüstan administrasiyası da nefti bu cür saxta sənədlərlə, Bağdadın icazəsi olmadan Türkiyə üzərindən ixrac edirdi.

Xatırladaq ki, bu ilin iyun ayında "Bloomberg" agentliyi Kürdüstan administrasiyasının Bağdadın icazəsi olmadan İraqın şimalından hasil olunmuş nefti Mübariz Mənsimovun tankerləri vasitəsilə bazarlara çıxardığını yazmışdı. Kürd nefti yüklənmiş tankerlərdən biri ABŞ-ın Texas ştatının sahillərində qeydə alınmışdı və Bağdadın etirazlarından sonra həmin tanker limana qəbul edilməyərək naməlum istiqamətə üzmüşdü.

YENİ MÜSAVAT
N 247 (5956) 4 oktyabr 2014

**AXP sədri Pənah Hüseyn son günlər yenidən müzakirə mövzusuna çevrilmiş aksiyalar məsələsinə münasibət bildirib. O, musavat.com-a verdiyi müsahibədə keçiriləcək mitinq və aksiyalarla bağlı fikirlərini bölüşüb.**



# Pənah Hüseyndən mitinq açıqlaması

## "Kütləvi aksiyalar formasında mitinq ən effektiv vasitələrdən biridir"

***- Pənah bəy, bildiyiniz kimi, Milli Şura oktyabrın 12-də mitinq keçirəcəyini açıqlayıb. Həmin mitinqdə iştirak edəcəksinizmi?***

- Bildirilib ki, həmin mitinq "Siyasi məhbuslara azadlıq!", "Repressiyalara son!" şüarı ilə keçirilir. Biz siyasi məhbusların azad olunması və repressiyalara son verilməsi ilə bağlı bütün hərəkətləri müdafiə edirik və odur ki, hansısa xüsusi hal olmasa və mitinq keçirilsə, iştirak edəcəm.

***- Xüsusi hal deyəndə nəyi nəzərdə tutursunuz?***

- Məsələn, təşkilatçılar bəyan edər ki, Pənah Hüseynin onların mitinqində iştirakını arzu etmirlər.

***- Deyirsiniz belə şey olar?***

- Güman etmirəm. Sadəcə, siz sual verdiniz, mən də cavablandırdım.

***- Yeri gəlmişkən, sizin partiyanın da təmsil olunduğu Demokratiya və İnsan Haqları Mərkəzinin son toplantısında mitinq komitəsinin yaradıldığı elan edilib. Hətta Milli Şura üzvlərindən Vidadi Mirkamal mərkəzdə birləşmiş partiyaların Milli Şuranı yamsıladığına eyham vurub ki, onların qərarından sonra siz də mitinqdən danışmağa başlamısınız.***



Pənah Hüseyn

- Mən Vidadi müəllimin açıqlaması ilə tanış deyiləm. Açığı, bu səviyyəli məsələlərə də xüsusi əhəmiyyət vermək tərəfdarı deyiləm. Ancaq bir halda ki, sual verirsiniz, faktiki aydınlıq naminə cavablandırım. Demokratiya və İnsan Haqları Mərkəzində birləşmiş siyasi partiyaların qəbul etdiyi qərarlar press-relizlər şəklində yayılır və KİV- də dərc edilir. O cümlədən axırıncı toplantının press-relizi eyni ilə sizin sayt və qəzetdə dərc edilib. Orda mitinq komitəsinin yaradıldığı barədə heç bir informasiya yoxdur və belə bir qərar da yoxdur. Son toplantılarda siyasi partiyaların bu ilin 17 sentyabrında-yeri gəlmişkən, bu tarixdə Milli Şuranın mitinq qərarı yox idi-ADP qərargahında keçirilən respublika konfransının qətnaməsində olan digər tapşırıqlarla yanaşı onun 6-cı bəndindəki "həbs və repressiyalara son qoyulması, demokratiya və insan haqlarına əməl edilməsi şüarları ilə siyasi partiyaların dinc kütləvi aksiyaların hazırlanması və həyata keçirilməsi istiqamətində iş aparılması lazım bilinsin" tövsiyəsinə uyğun müzakirələr aparılıb və işçi qrupun yaradılması barədə razılıq əldə olunub. Görünür, bu müzakirələr təhrif olunmuş şəkildə mətbuata sızıb. Ümumiyyətlə, ideyaya gəldikdə isə bu, həmişə var və mənim xatırladığıma görə konkret olaraq professor Cəmil Həsənlinin sədr olduğu Leyla Yunus və digər siyasi məhbusların müdafiə komitəsində müdafiə aksiyası olaraq mitinq keçirilməsi Arif Hacılı və mənim tərəfimdən irəli sürülmüşdü, lakin o vaxt bu məsələ müzakirə edilmədi. Sonra AXCP-də mitinq müzakirələrinin başladığı barədə məlumatlar getdi. Hərçənd ki, mənim fikrimcə, aksiyanın Leyla Yunusun müdafiə komitəsi tərəfindən keçirilməsi onda daha geniş spektrin iştirakını təmin edərdi, lakin görünür, belə məsləhət olub və bizə də aksiyaya uğurlar arzulamaq və imkanımız daxilində dəstək vermək qalır. Çünki həqiqətən hakimiyyətin repressiv kursuna, o cümlədən kütləvi aksiyalar formasında etiraz ən effektiv vasitələrdən biridir, indiki şəraitdə isə ən effektlisidir. Siyasi partiyaların aksiya keçirməsinə gəldikdə isə yuxarıda dediyim kimi, bu məsələ müzakirə mərhələsindədir.

❑ **RÖYA**

# İslam Partiyasının həbsdəki sədri Qobustana köçürülür

## Vəkil Anar Qasımlı: "Görünür, rejim qaydalarının pozulmasını əsas göstərərək belə bir addımı atmaq istəyirlər"

**İslam Partiyasının sədri Mövsüm Səmədov hazırda saxlanıldığı 12 saylı cəzaçəkmə müəssisəsində aclıq aksiyasını davam etdirir. Oktyabrın 9-da isə onun Qobustandakı xüsusi rejimli həbsxanaya köçürülməsi ilə bağlı məhkəmə prosesi keçiriləcək. Bu barədə "Yeni Müsavat"a AİP sədrinin vəkili Anar Qasımlı məlumat verib.**

Vəkil bildirdi ki, Mövsüm Səmədov aclığı hələ də davam etdirir və ombudsmanla, eyni zamanda Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndələri ilə görüş tələb edir. Ombudsmanla görüşə nail olmayana qədər aclığı davam etdirəcəyini bildirib.

Qeyd edək ki, Hacı Mövsüm Səmədov 2011-ci ilin yanvarında həbs olunub. Ona qarşı hakimiyyəti zorla ələ keçirmə cəhdi və başqa ağır cinayətlərlə bağlı ittiham irəli sürülüb, partiyanın daha bir neçə fəalı ilə birlikdə uzun müddətə azadlıqdan məhrum edilib.

Sentyabrın 18-də Mövsüm Səmədovu saxlanıldığı 11 saylı cəzaçəkmə müəssisəsindən 12 saylı müəssisəyə köçürüblər. 12 saylı cəzaçəkmə müəssisəsində M.Səmədova əvvəlcə 5 sutka, daha sonra isə 7 sutka karser cəzası verilib. Bundan sonra AİP sədri aclıq aksiyası elan edib, yalnız su qəbul edib. Həbsxanadan göndərilən fotolarda M.Səmədovun sağlıq durumunun xeyli pisləşdiyi, ciddi şəkildə zəifləmiş olduğu aydın görünür.

**Anar Qasımlı bildirdi ki, M.Səmədovun yerinin dəyişdirilməsi ilə bağlı hər hansı səbəb göstərilməyib:** "11 saylı həbsxanadan köçürülməsi ilə bağlı heç bir səbəb deyilməyib. Orda məhbuslarla nəzarətçilər arasında nəsə insident olub. Penitensiar Xidmət hesab edir ki, bunu Mövsüm Səmədov təşkil edib. Bundan sonra 12 saylı həbsxanaya köçürülüb və burda da heç nə demədən karsa salıblar".

**Vəkil M.Səmədovun Qobustan xüsusi həbsxanasına köçürülməsi ilə bağlı məhkə-**



Hacı Mövsüm Səmədov

**mədən məlumat aldığını bildirdi:** "Mənə məhkəmədən zəng etmişdilər ki, oktyabrın 9-da məhkəmə prosesi olacaq. Səbəb kimi Mövsüm Səmədovun guya bir neçə dəfə xəbərdarlığın edilməsinə baxmayaraq daxili nizam- intizam qaydasını pozmasıdır. Təqdimatda AİP liderinin 3 il müddətinə Qobustanda saxlanılması istənilib. Dünən (srağagün - red.) mən onunla görüşəndə xəbəri yox idi. Mövsüm Səmədovun maddəsi Qobustana salınması üçün əsas vermir, ancaq görünür, rejim qaydalarının pozulmasını əsas göstərərək belə bir addımı atmaq istəyirlər".

Qeyd edək ki, Ədliyyə Nazirliyinin Penitensiar Xidməti M.Səmədovun hansı səbəbdən 12 saylı CÇM-ə köçürülməsi ilə bağlı hər hansı açıqlama verməyib.

**Ötən gün Dini Etiqad və Vicdan Azadlığını Müdafiə Mərkəzi (DEVAMM) Mövsüm Səmədovun həbsxanada üzləşdiyi çətinliklərlə bağlı bəyanat verib. Mərkəzin sədri Hacı İlqar İbrahimoğlunun yaydığı bəyanatda bildirilir:** "DEVAMM olaraq, Mövsüm Səmədovla bağlı durumdan dərin narahatlığımızı izhar edirik. AİP sədrinə qarşı bu cür davranış - insan hüquq və azadlıqlarının kobud surətdə pozulmasıdır. DEVAMM Mövsüm Səmədovun tələblərinin təmin edilməsi, onun hüquqlarının təxirəsalınmaz surətdə bərpası, AİP sədrinə ciddi tibbi yardım göstərilməsi ilə bağlı əlaqədar qurumlar qarşısında məsələ qaldırır. DEVAMM bəyan edir ki, Mövsüm Səmədova münasibətdə ədalətli və qanuni yanaşma bərpa edilməli, onun qüvvədə olan qanunvericiliklə təsbit edilən hüquqları təmin edilməlidir".

❑ **KƏNAN**

# Cahillikdən qatilliyə



**Xalid KAZIMLI**

**Goranboyda baş verən məşum, faciəvi, tükürpədən qətlin təfərrüatları açıldıqca görürsən ki, bu, adi psixopatın törətdiyi qətl deyil. Bu hadisənin mayasında cəhalət, nadanlıq, gerizəkalılıq durur.**

Qorxunc qatilin birinci arvadını döyüb boşaması onun psixi pozğunluğuna, aqressivliyinə işarədirsə, ikinci arvadını adi bir şeyə, öz doğma əmisi oğlu ilə mehriban görüşməsinə görə döyməsi artıq həm də onun arxaik dünyagörüşündən xəbər verir.

Nə baş verib? Uzun müddətdən bəri görüşməyən, başqa şəhərlərdə yaşayan əmioğlu və qatilin həyat yoldaşı olan əmiqızı toyda görüşüb, qardaş-bacı kimi öpüşüblər və bu mənzərə qatilin beyninin qurdlarını tərpədib.

Dinəndə şimaldakı qonşularımızı, avropalıları bəyənmirik, namus-qeyrət məsələsindəki baxışlarına üstdən aşağı baxırıq, "qey" və "qeyrətsiz" adlandırırıq, amma onlar əmiqızına, xalaqızına, dayıqızına seksual nəzərlərlə baxmırlar *(maniakal istisnalar nəzərə alınmır)*, bir-birilə sevgili olmur, evlənmirlər, bir-birinə "qardaş", "bacı" *("dvoyurodnaya sestra", "dvoyurodnıq brat", "kuzen")* deyirlər. Bədii ədəbiyyat nümunələrindən və tarixə aid kitablardan bildiyimizə görə, çox əvvəllər Avropada da "kuzen"lər arasında nikahlar olub, amma onlar inkişaf etdikcə zamanla bundan imtina ediblər, anlayıblar ki, kuzenlər qardaş-bacı deməkdir.

Bu xüsusda biz hələ Şərq cəhalətinin caynağındayıq, qəbilə təfəkküründə qalmaqdayıq. Yaxın qan qohumlarının nikahı kütləvi şəkildədir. Xüsusilə də əyalətlərdə əmisioğluna getmək istəyən qızlar ciddi qınaq altındadır. Bu cəhaləti əsaslandırmaq üçün insanlar müqəddəs kitablara, "elimizin adət-ənənəsi"nə tez-tez istinad edirlər, "əmioğlu ilə əmiqızının kəbini göydə kəsilib" deyə arxaik bir fikir işlədirlər.

Goranboylu qatilin də beyninə həkk olunub ki, əmioğlu qardaş deyil, yaddır və o, bunun həyat yoldaşıyla görüşürsə, deməli, ortada hansısa seksual bağlılıq var.

Halbuki toyda bir-biriylə bu cür görüşən qohumların arasında o cür bağlılıqların olması ehtimalı sıfır civarındadır *(Yenə də nadir istisnalar ola bilər)*.

Son illər "mənim yoldaşım (nişanlım) heç öz qardaşı ilə də öpüşüb-görüşə bilməz" deyən qeyrət dağarcıqlarının sayı artıb. Və onlar həm özlərinə, həm də yaxınlarının həyatına, azadlığına təhlükə törədir, tez-tez qanlı hadisələrə səbəb olurlar.

Qonşu Türkiyədə də belədir. İranda daha betərdir.

Yeri gəlmişkən, hələ 20 il öncə bizim bir tanışımızın başına İranda belə bir hadisə gəlmişdi. O, Tehranın küçəsində gedərkən birdən doğma əmisiqızı qarşısına çıxır. Qız Bakıda, oğlan isə rayonda yaşayırlar və həmişə bir-birinə qonaq gedəndə mehriban görüşürlər deyə, vətəndən uzaq bir şəhərdə də təsadüfən rastlaşdıqları zaman ölkənin qayda-qanunlarına fikir vermədən görüşürlər. Dərhal İran sərbazları onları yaxalayır, aparıb zindana salırlar ki, bəs günah iş görmüsünüz. Ali təhsilli, dünyagörüşlü olan oğlan səs-küy salır, onları saxlayanlara deyir ki, siz başa düşmürsünüz ki, bu qız mənim bacımdır, bir ailədə böyümüşük, bu da bizim sənədlərimiz. İranlı hüquq-mühafizə, din, namus, qeyrət keşikçiləri deyirlər, yox, əmioğlu və əmiqızı bu cür görüşə bilməz. Uzun söhbətdən sonra onların xarici ölkə vətəndaşı olduğunu nəzərə alaraq buraxırlar və mehriban kuzenlər dərhal Astaraya gəlirlər.

Bu təfəkkür tərzi yavaş-yavaş buralarda da yayılmaqdadır. Ən yaxın qohumlara seksual nəzərlərlə baxmaq, evlənmək kimi arxaik bir qəbilə ənənəsi heç cür sıradan çıxmır, əksinə, daha da genişlənir. Müasir tibb elmi belə nikahların zərərlərini çoxdan sübut edib və bu xüsusda təbliğat materialları çox yayılsa da, xeyri yoxdur.

Folklorumuz belə insest hadisələrinə haqq qazandırır. Toylarda 50 ildən bəridir dəbdən düşməyən uyğun səpkili mahnılar çaldırırlar: "Mən sənə aşiq olmuşam, əmiqızı", "Oyna, ay xalamqızı", "Səkinə dayqızı, lay-lay" və s. Bu mahnıların sədaları altında oynayanlar öz yaxın qohumlarından kiməsə (mahnı seçimindən aydındır kimə) mesaj verirlər və onları alıb arvad etməyə çalışırlar.

Goranboylu qatilin tüfəng və qumbara işlətməklə 7 adam öldürməsi hadisəsi bu cür arxaik təfəkkür tərzinin doğurduğu cinayətdir.

YENİ MÜSAVAT
N 247 (5956) 4 oktyabr 2014




# Tofiq Yaqublu və İlqar Məmmədovla görüşə icazə verilmir

## Yaxınları vicdan məhbuslarına görə narahatdırlar

**Hazırda Şüvəlan təcridxanasında saxlanılan Müsavat başqanının müavini Tofiq Yaqublu və REAL Hərəkatının sədri İlqar Məmmədov ciddi problemlərlə üzləşiblər. Başqan müavininə aparılan sovqat geri qaytarılıb. Real sədrinin isə vəkili ilə görüşünə icazə verilməyib. Hər iki məhbusla əlaqə saxlamaq mümkün olmur.**

**Tofiq Yaqublunun qızı Nigar Yaqublu** hələ də atası barədə xəbər bilmədiklərini qeyd etdi: “Hələ ki onlar haqqında bir xəbərimiz yoxdur. Telefon danışığına belə icazə vermirlər. Cəzaçəkmə müəssisəsinə köçürüləndən sonra icazə veriləcəyini deyirlər. Artıq bir həftədən çox keçib. Amma hara aparılacaqları hələ məlum deyil. Buna görə də çox narahatıq”.

**Başqan müavininin vəkili Nemət Kərimli Qurban bayramından sonra onunla görüşməyə cəhd edəcəyini bildirdi:** “Heç bir əlaqə yarada bilməmişik. Bayramdan sonra görüşməyə cəhd edəcəm”.

İsmayıllı hadisələrinə görə həbs edilən və hazırda Şüvəlan təcridxanasında saxlanılan REAL sədri İlqar Məmmədovun da vəziyyəti ürəkaçan deyil. Vəkili və yaxınları onunla görüşə bilmir.

Bu barədə “Media forum” saytına açıqlamasında **vəkil Xalid Bağırov** bunları deyib: “ Şüvəlan təcridxanasına gətiriləndən İlqar Məmmədovla ailəsi də əlaqə saxlaya bilmir. Məhbusun yeri dəyişdirildiyinə görə yenidən Penitensiar Xidmətə müraciət edilməli, icazə alınmalıdır. Bu cür bürokratik əngəllər birbaşa vətəndaşların hüquqlarını pozur. Vəkil hüquqlarını müdafiə etdiyi şəxslə dərhal, maneəsiz, istənilən zaman, istənilən şəraitdə görüşə bilməlidir. Əgər səbəb gətirilən əngəllər qanunvericilikdə belə əksini tapıbsa, bunun özü qanun pozuntusudur. Vətəndaşların hüquqlarının məhdudlaşdırılmasıdır. Məhbus bir həftədir köçürülüb, onunla əlaqə yarada bilmirik, ona aparılan sovqatı da qəbul etmirlər. Ümumiyyətlə, onun barəsində məlumat vermirlər. Bu, İlqar Məmmədovun hüquqlarının pozulması deyilmi?”

Xatırladaq ki, Tofiq Yaqublu və İlqar Məmmədov İsmayıllı hadisələrinə görə həbs olunub. Ötən il yanvarın 23-24-də İsmayıllı şəhərində baş verən iğtişaşlara görə ümumən 20 nəfər tutulub. Şəki Ağır Cinayətlər Məhkəməsinin 2014-cü il martın 17-də çıxardığı hökmlə Tofiq Yaqublu 5 il, İlqar Məmmədov 7 il müddətinə azadlıqdan məhrum edilib. Sentyabrın 24-də Şəki Apelyasiya Məhkəməsi bu cəzanı qüvvəsində saxlayıb. Sentyabrın 25-də Tofiq Yaqublu və İlqar Məmmədov Şəki İstintaq Təcridxanasından Şüvəlan təcridxanasına gətirilib.

❑ **Cavanşir ABBASLI**

# Daha 4 hicab məhbusu azadlığa buraxılıb

**Oktyabrın 3-də daha 4 hicab məhbusu azadlığa buraxılıb. Azadxeber.net saytının məlumatına görə, hicab məhbusları Bayraməli Vəlişov, Ruhid Abbasov, Xudaverdi Abdullayev və Arif Fətəliyev oktyabrın 3-də cəzaçəkmə müəssisələrindən azadlığa buraxılıblar. Azadlığa buraxılan şəxslərin həbs müddəti başa çatıb.**

Bayraməli Vəlişov, Ruhid Abbasov, Xudaverdi Abdullayev Salyan rayonunda yerləşən 5 saylı (Xələc), Arif Fətəliyev isə 14 saylı cəzaçəkmə müəssisəsindən azadlığa buraxılıb.

Qeyd edək ki, 2012-ci il oktyabrın 5-də Bakıda Təhsil Nazirliyinin binası qarşısında hökumətin orta məktəblərdə baş örtüyü qadağasına etiraz olaraq etiraz aksiyası keçirilib. Aksiya zamanı polislə qarşıdurma olub, bir neçə nəfərə yaralanıb. Aksiyada 100 nəfərə yaxın insan iştirak edib. Polis xeyli sayda aksiya iştirakçısını həbs edib. Həmin gün və sonrakı günlərdə aksiyada iştirakda ittiham olunaraq saxlanılan 36 nəfərə cinayət işi açılıb və onlara il yarımdan 6 ilədək müxtəlif müddətlərdə həbs cəzası verilib. Ötən dövrdə hicab aksiyası iştirakçılarından bir qismi azadlığa buraxılıb. İki il həbs cəzası almış daha 4 nəfərin buraxılmasından sonra həbsxanada 13 nəfə hicab məhbusu qalıb.

❑ **KƏNAN**

**Xəbər verdiyimiz kimi, Milli Şuranın sədri Cəmil Həsənlinin qızı Günel Həsənlinin təxminən 10 gün bundan əvvəl günorta vaxtı Yasamal rayonu ərazisində “KİA” markalı avtomobili idarə edərkən yolu keçən 86 yaşlı qadını vurması barədə mediada xəbərlər yayılıb. Bu xəbərlərin davamı olaraq oktyabrın 3-də G.Həsənli istintaqa çağırılıb. İstintaqa gedərkən onu atası Cəmil Həsənli də müşayiət edib.**

# Cəmil Həsənlinin qızını istintaqa çağırdılar

## Oqtay Gülalıyev: “Məqsəd müxalifətdəki tanınmış şəxslərə qeyri-mənəvi yollarla təzyiq edilməsidir”

## Ehsan Zahidov: “Günel Həsənli məsuliyyətdən yayınmaqdan ötrü zərərçəkmiş şəxslə sövdələşib və həkimlərə yalan məlumat verib”



**Milli Şuranın mətbuat xidmətinin rəhbəri Oqtay Gülalıyev** “Yeni Müsavat”a açıqlamasında dedi ki, G.Həsənli və C.Həsənli istintaqdan çıxıblar. Müsahibimiz G.Həsənlinin yenidən istintaqa çağırılacağını istisna etməyib: “Onlarla müstəntiq görüşüb. Biz hesab edirik ki, bu proses davam edəcək. Məqsəd müxalifət düşərgəsindəki ayrı-ayrı tanınmış şəxslərə qeyri-mənəvi yollarla təzyiq edilməsidir. Cəmil Həsənli ilə bağlı vəziyyət də eynən bu cürdür”.

**Milli Şuranın sədri Cəmil Həsənli “Azadlıq”a açıqlamasında deyib ki, qızını maşınla adam vurub qaçmaqda ittiham etmək istəyirlər:** “Mətbuatda mənim qızım Günel Həsənlinin avtomobil qəzası törətməyi və yaşlı bir qadını vurub qaçması, həmin qadının guya başqa vətəndaşlar tərəfindən xəstəxanaya aparılması barədə məlumatlar yayılıb. İlk növbədə onu bildirmək istəyirəm ki, bu təxribat kimlərin tərəfindən hazırlanmışdısa, həmin dairələr tərəfindən də nəzarətlərində olan KİV-lərə ötürülüb”.

**Milli Şura sədrinin sözlərinə görə, ona və ailə üzvlərinə qarşı təxribat hazırlandığından öncədən məlumatlıymış:** “Daxili İşlər Nazirliyi orqanlarına məxsus olan "Hunday" markalı avtomobillər heç vaxt bizi nəzarətdən kənar qoymayıb. Qızım Günel Həsənlinin maşınının izlənməsi barədə məlumatımız var idi. Şübhəsiz ki, bütün bunlar hamısı mənim siyasi fəaliyyətimlə bağlıdır. Evimiz Yasamalda “İlahiyyat” məscidi ilə qonşuluqda yerləşir. Cümə günləri məscidə ibadət üçün çoxlu adam gəldiyindən saat 13-15 arası evimizə girib çıxmaq, sadəcə olaraq, mümkün deyil. Sentyabrın 19-da Günel uşaqlarını məktəbdən gətirən vaxt məhz belə bir vəziyyətlə qarşılaşıb. Bu vəziyyətdə dayanmalısan və ya maşını yalnız 5-10 sürəti ilə hərəkət etdirə bilərsən. O, çox aşağı sürətlə binaya dönən vaxt yaşlı bir qadının maşına tərəf gəldiyini görüb maşını saxlayıb və həmin qadın maşına toxunandan sonra özünü yerə yıxıb".

Cəmil Həsənli deyir ki, qızı qadını Respublika Klinik Xəstəxanasına aparıb. Yolda 86 yaşlı Adilə Səlimova bildirib ki, əgər sınığı olsa şikayət edəcək, olmasa, şikayətçi deyil. Ancaq bunun müqabilində 300 manat pul alacaq. Günel bildirib ki, günahı yoxdur və pul verəsi deyil. Təxminən 15:30-da Adilə xanım rentgen olub. Müayinə edən həkim onda heç bir şeyin olmadığını, yalnız duzlaşma olduğunu bildirib və duzlaşmaya müalicə kimi maz və tabletka yazıblar. Xəstəxanadan Adilə xanım taksi ilə evinə yola salınıb.

Əgər Adilə xanım ağır xəsarət almışdısa, onu niyə evə buraxırdılar, bircə mərtəbə yuxarıda tramvatologiya şöbəsi yerləşir, elə qəbul edərdilər həmin şöbəyə”.

**“Cəmil Həsənlinin qızı yol-nəqliyyat hadisəsi törədib və bunu hüquq-mühafizə orqanlarından gizlədib”. Bu barədə APA-ya açıqlamasında Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin rəis müavini Ehsan Zahidov bildirib.**

**O qeyd edib ki, 10 gün əvvəl, sentyabrın 19-da saat 14:30 radələrində sürücü Günel Həsənli idarə etdiyi “KİA” markalı avtomobillə yolu keçən piyada, 1928-ci il təvəllüdlü Adilə Səlimovanı vurub:** “Günel Həsənli xəsarət alan piyadanı götürərək xəstəxanaya aparıb. Sürücü məsuliyyətdən yayınmaqdan ötrü zərərçəkmiş şəxslə sövdələşib və həkimlərə yalan məlumat verib. Onlar bildiriblər ki, guya Adilə Səlimova yıxılıb və Günel Həsənli yardım etmək məqsədi ilə onu xəstəxanaya aparıb. Lakin polis əməkdaşlarının apardığı araşdırmalar nəticəsində hadisənin əsl mahiyyəti üzə çıxıb və onların hər ikisi danılmaz faktlar qarşısında aciz qalaraq hadisəni etiraf edib”.

E. Zahidov həmçinin qeyd edib ki, hazırda baş vermiş hadisə ilə bağlı təhqiqat araşdırmaları davam etdirilir və araşdırmaların nəticəsinə uyğun olaraq fakta hüquqi qiymət veriləcək.

**Cəmil Həsənli isə “Azadlıq”a açıqlamasında bildirib ki, Ehsan Zahidovun dedikləri həqiqətə uyğun deyil:** “Hadisə baş verən zaman post-patrul xidmətinin əməkdaşları həmin ərazidə olublar, baş vermiş hadisəni gözləri ilə görüblər və Adilə xanım xəsarət almadığından məsələyə ciddi münasibət bəsləməyiblər. Günel xanım Adilə Səlimovanı xəstəxanaya ərazidə olan polis işçisi ilə bərabər aparıb. Yəni Adilə xanımla yanaşı polis əməkdaşı da Günelin maşınında olub və xəstəxanaya bir yerdə gediblər. Ona görə də burada hadisəni gizlətməkdən söhbət belə gedə bilməz. Əgər prosesdə polis işçisi bilavasitə iştirak edibsə, hansı yalan danışmaqdan söhbət gedə bilər? Bir də ki xəbər ola bilsin, Ehsan Zahidova təzə çatır, amma hadisə baş verən kimi polis onu araşdırıb. Araşdırma 26-cı polis bölməsində aparılıb və təxminən bir həftə əvvəl iş Yasamal Rayon Polis İdarəsinə təhvil verilib. Bundan sonra da orada müvafiq araşdırma başlayıb”.

**C.Həsənli E.Zahidovun “qəza törədən sürücü piyadanı həkimə aparanda orada da yalan danışıb. Həkimə deyiblər ki, qadın yıxılıb və bunlar da müayinəyə gəliblər. Lakin əməliyyatçılar bu yalanı ortaya çıxarıblar” sözlərini də təkzib edib:** “DİN sözçüsünün bu məlumatı da doğru deyil. Günel Adilə Səlimovanı polis işçisi ilə birlikdə Respublika Xəstəxanasının qəbul otağına aparanda qəbul edən həkimə və baş tibb işçisinə bildirib ki, bu qadın özünü mənim maşınıma vurub. Tibb işçiləri isə deyiblər ki, belə hadisələr olur, şükür Allaha ki, heç bir xəsarət yoxdur. Adilə Səlimovanın isə orada nə deyib-dəməməsi onun öz işidir”.

**Milli Şura sədri E.Zahidovu açıqlamalarında diqqətli olmağa çağırıb:** “Yaxşı olar ki, Ehsan Zahidov açıqlama verdiyi məsələ haqqında doğru-düzgün məlumatlar toplasın, sonra açıqlama versin. Daxili İşlər Nazirliyi kimi bir dövlət orqanının adından ictimaiyyətə yalan məlumat vermək yaxşı hadisə deyil. Cənab Zahidovun açıqlamasının özü də hadisənin siyasi mülahizələrlə törədildiyinə daha bir sübutdur”.

❑ **Sevinc TELMANQIZI**





# Qubad İbadoğluna və Vurğun Əyyuba sərt ittihamlar

**Müsavat Partiyasının qurultayından sonra partiya daxilində Qubad İbadoğlunun tərəfdarları ilə başqan seçilən Arif Hacılını dəstəkləyənlər arasında çəkişmə davam edir. Bir müddət öncə Müsavat Partiyasının lideri İsa Qəmbərin şəxsi sərəncamı ilə müşavir postundan azad edilən Hüseyn Məlik Arif Hacılını başqanı kimi görmək istəmədiyini bildirib.**

Qubad İbadoğlunun özünün sentyabrın 2-də yaydığı müraciətdə Müsavat Məclisinə yeni seçilmiş insanların orta savadlı insanlar olduğunu bildirməsi isə narazılıqları bir qədər artırıb.

**Nüşabə Sadıqlı Məclisə seçilən alimləri saydı**

**Müsavat Məclisinin üzvü Nüşabə Sadıqlı bildirdi ki, Qubad İbadoğlunun bu cür açıqlama verməsindən təəccüblənib:** "Heç bir partiyanın Məclisində Müsavat Məclisindəki qədər alim, ziyalı yoxdur. Əvvəlki ziyalılar bir-iki nəfər istisna olmaqla, hamısı yenidən seçilib. Qubad bəy özü namizədliyini versə, seçilər. Adil Qeybullanın seçilməməsi Məclisə savadlı adamların seçilməməsi demək deyil. Elmlər doktoru Almaz Əliqızı, elmlər doktoru Nəsiman Yaqublu, elmlər namizədi Sabir Məmmədli, elmlər namizədi Məlahət Mürşüdlü, elmlər namizədi Gülağa Aslanlı, elmlər namizədi Hikmət Hacızadə, elmlər namizədi Vurğun Əyyub Məclis üzvü seçiliblər. Mən özüm də elmlər namizədiyəm. Hələ bunlar mənim bildiklərimdir. Qubad bəyin qatı tərəfdarları olan ziyalıların Məclis üzvü seçildiyi məlumdur. Belə olduğu halda heyrətə gəlirəm ki, Qubad bəy niyə bu cür ədalətsiz açıqlama verib. Ağlıma gəlmirdi ki, Qubad bəy qurultaydan sonra belə mövqe tutacaq".

**N.Sadıqlı onu da dedi ki, Arif Hacılıya səs verən insanların Arif bəydən qorxaraq ona səs verdiklərini iddia etmək ayıbdır:** "İllərdir Əliyevlər hakimiyyəti ilə mübarizə aparıb qorxmayan insanlar öz partiyadaşlarının nəyindən qorxmalıdırlar!? Arif bəy onlara məvacib verir, başqa maddi imkanlar yaradır ki, bunun kəsilməsindən qorxsunlar!? Hər kəs kimi münasib bilibsə, ona da səs verib. Bundan ötrü bu qədər qalmaqal yaratmağa dəyərmi? Biz dünyaya, Azərbaycana gözəl seçki nümunəsi qoymuşuq. Buna kölgə salmaq olmaz. Mən qurultaydan sonra gedən prosesləri üzülərək izləyirəm. Mən Qubad bəydən, onun tərəfdarı olan bir neçə tanınmış şəxsdən belə gözləmirdim. Əgər biz müsavatçılıq ideologiyasını qəbul etmişiksə, gərək birliyin tərəfdarı olaq, dağıdıcılıq yolunu tutmayaq və qalib gəlmiş şəxsin qalibiyyətini qəbul edib onun fəaliyyətinə dəstək verək. Bunları etməmək müsavatçılıqdan uzaq olmaqdır. Bunu etməyən insanların səmimiliyinə inanmıram. Mən baxıram ki, bir sıra adamlar elə bil kiminsə göstərişi ilə Müsavatı dağıtmaq istəyirlər. Ancaq belələri bilməlidirlər ki, Müsavatı dağıtmaq gücündə deyillər".

**Qubad İbadoğluna səs vermiş Nigar Yaqubludan etiraz**

**Məclis üzvü Nigar Yaqublu da seçkilərdə müdafiə etdiyi şəxsin belə bir fikir səsləndirməsindən təəssüfləndiyini bildirdi:** "Müsavat Məclisinə mən də seçilmişəm. Mənim ali təhsilim var, savadsız deyiləm və neçə illərdir Müsavat Partiyasının üzvü kimi siyasi təcrübə toplamışam. Məclisə seçilənlərin yarıdan çoxu qadınlardır. Qadınlar kifayət qədər yüksək səs toplayıb. Qadınların Məclisdə sayının çox olması Müsavatın üstünlüyüdür. Sevindirici haldır ki, Müsavat Partiyası demokratik seçki nümunəsi ortaya qoydu. Müsavatın demokratiyaya verdiyi töhfəyə kölgə salmaq düzgün deyil. Düzdür, adətən məğlub tərəf narazı qalır, gileylənir. Baxmayaraq ki, mənim özüm də Qubad bəyə səs vermişəm, amma mən gözləyirdim ki, Qubad bəy seçkidən sonra başqa cür çağırışlar edəydi. Sonucda Arif Hacılı da Müsavatın üzvüdür. Mən istərdim ki, Qubad bəylə Arif bəy birlikdə fəaliyyət göstərsinlər. Qubad İbadoğlu özü də etiraf edib ki, ona Müsavatda ikinci post-Məclis sədri seçilmək təklif edilib. Mən bilirəm ki, Müsavatın maraqları naminə Arif Hacılının tərəfdarları da daxil olmaqla, hər kəs Qubad İbadoğlunun Məclis sədri olmasının tərəfindədirlər. Çox istərdim və ən doğrusu bu olardı ki, Qubad bəy Məclis sədri seçilməsinə razılıq versin, partiyamızı Arif Hacılı ilə çiyin-çiyinə qabağa aparsın".

**N.Yaqublu onu da bildirdi ki, Q.İbadoğlunun oktyabrın 6-da keçirəcəyi toplantıya gedəcək. Lakin çağırışı qəbul eləyib getməsi o demək deyil ki, həmin toplantıda ortaya qoyulacaq bütün mövqeləri dəstəkləyəcək:** "Hər kəsin öz fikri var. Nə olsun ki, Qubad İbadoğlunu başqan görmək istəyirdim. Bu o demək deyil ki, Qubad bəyin bütün fikirləri və çağırışları ilə razı olmalıyam. Arif Hacılı başqan seçilib deyə Müsavatdan gedənlər olacaqsa, bəri başdan bildirirəm ki, onları səmimi müsavatçı saymıram. Belə çıxır ki, onları Müsavatın maraqları düşündürmürmüş. Biz Müsavatda kiməsə görə yox, əqidəyə görə fəaliyyət göstəririk. Bu mövqeyimizi oktyabrın 6-dakı toplantıda da ortaya qoyacağam. Kimsə bəhanələrlə Müsavatdan gedəcəksə getsin".

**Qubad İbadoğlu sülh müraciəti yaydı**

**Qubad İbadoğlu isə oktyabrın 3-də özünün facebook səhifəsində Qurban bayramı münasibətilə yazdığı təbrikində müsavatçılara müraciət ünvanlayıb. Müraciətdə deyilir:** "Əziz müsavatçı bacı və qardaşlarım! Son vaxtlar ayrı-ayrı müstəvilərdə, xüsusən sosial şəbəkələrdə müsavatçılar arasında qarşılıqlı ittiham üzərində qurulan müzakirələri zərərli hesab etdiyimdən Müqəddəs Qurban Bayramı öncəsi Sizə səslənirəm. Birlik və bərabərlik bayramı hesab olunan bu əziz günlərdə hər bir müsavatçı partiyadaşımdan böyük anlayış, qarşılıqlı hörmət və siyasi dözümlülük gözləyirəm.

Son nəticədə Müsavat üçün zərərli olan bu müzakirələri dayandırmağın bu əziz gündə edəcəyimiz ən böyük savablardan biri kimi taleyimizə yazılacağına inanıram.

Hər birinizin bayramını təbrik edir, kəsdiyiniz qurbanların, etdiyiniz duaların Tanrı dərgahında qəbul olunmasını bütün səmimiyyətimlə ürəkdən arzu edirəm!"

Qubad İbadoğlunun bu müraciətini onun Müsavatın bütövlüyünü qorumaq istəyində olduğu kimi dəyərləndirmək mümkündür. Böyük ehtimalla 6 oktyabrda tərəfdarları qarşısında da Qubad bəy bu mövqedən çıxış edəcək. Onun müraciətinə müsavatçıların facebookda müsbət reaksiyaları da hər kəsin belə bir mövqe gözlədiyinin sübutudur.

Müşahidələr belə bir qənaət yaradır ki, Müsavatda təlatümlərin yaşanmasında Qubad İbadoğlu yox, əslində Vurğun Əyyub və daha bir-iki nəfər maraqlıdır. Onlar başqan seçilməyən şəxsdən daha çox narazılıq edirlər, demək olar ki, hər gün açıqlama və yazılarında Müsavatın qurultayını tamamilə gözdən salmaq yolu tutublar. Yeni başqana və ona yaxın şəxslərə qarşı kəskin ittihamlar yağdırırlar. Belə təəssürat yaranır ki, sanki indiyə qədər Qubad İbadoğlunun ortaya qoyduğu mövqedə də həmin şəxslərin təsiri olub.



**Nüşabə Sadıqlı:**
"Bir sıra adamlar elə bil kiminsə göstərişi ilə Müsavatı dağıtmaq istəyirlər"



**Vaqif Hacıbəyli:**
"Vurğun bəy, nə sən, nə Qubad İbadoğlu niyə gözə dəymədiniz?"

**Vaqif Hacıbəyli Vurğun Əyyubun cavabını verdi**

**Əhrar Partiyasının sədri Vaqif Hacıbəyli isə Vurğun Əyyubun onu xəstə, tərbiyədən uzaq adlandırmasına cavab verib. Vaqif Hacıbəyli facebook səhifəsində yazıb ki, Müsavat Partiyasının yeni və köhnə başqanları ondan xahiş etmişdilər ki, qurultaydan sonra meydana çıxan diskussiyalarla bağlı mövzularda polemikaya son versin, o da onlarla razılaşıbmış. Amma Vurğun Əyyubun ona qarşı etikadan uzaq fikirlər işlətməsi cavab yazmaqdan başqa yol qoymur:** "Biri məni tərbiyəsiz adlandırır, başqa birisi şəxsiyyət olmadığımı deyir, partiya rəhbərliyindən heç kəs də bunlara cavab vermir, onda pardon, mən niyə bunlara cavab verməməliyəm? Vurğun Əyyubun mənə qarşı olan iddialarına aydınlıq gətirmək üçün bildirirəm ki, 2003-ü il oktyabrın 19 və 20-də mən həbsdə olmuşam. Oktyabrın 22-də həbsdən buraxılandan sonra bütün məhbuslar həbsdən azad olunana kimi il yarım ərzində demək olar ki, hər gün heç bir təmənnasız daim Müsavat Partiyasında qara fəhlə kimi çalışmışam. Vurğun Əyyub gözəl bilir ki, qərargahla bağlı, Müsavata qarşı Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən irəli sürülən bir milyonluq mülki iddia ilə bağlı məhkəmələrdə onun imzaladığı etibarnamə əsasında Müsavat Partiyasını təmsil etmişəm və mənə heç bir təlimat verilmədiyi halda, bütün məsuliyyəti öz üzərimə götürərək Müsavatı AMİP və AXCP kimi qərargahsız qalmaq aqibətindən xilas etmişəm. Mülki iddianın isə baxılmadan saxlanmasına nail olmuşam. "Azadlıq" qəzeti redaksiyasında keçirilən tədbirin təşkilatçılığını və aparılmasını həyata keçirmişəm, orada təqdim etdiyim 15 səhifəlik geniş məruzədə hadisələrə siyasi qiymət vermişəm və həmin məruzənin mətnini xarici dillərə çevirib bütün dünyaya yaymışam. Nəticədə 15 oktyabr məhbuslarının əksəriyyəti vicdan məhbusları kimi tanındılar. Həmin məhbusların müdafiəsi ilə bağlı yaranan Repressiyalara Qarşı Müdafiə Komitəsinin üzvləri yumşaq desək, meydandan çəkildikləri üçün Müsavat Partiyası öz yeni qərargahında 15 oktyabr məhbuslarının müdafiə komitəsini yaratdı və mən həmin komitənin sədri seçildim. Vurğun Əyyub gözəl bilir ki, həmin komitədə məndən başqa heç kəs yox idi. Heç kəs adını ora yazdırmaq istəmədi. Çünki qorxdular. Heç vaxt borcundan çıxa bilməyəcəyimiz Osman bəy, Yavər bəy, Namizəd bəy kimi vəkillərin səyləri, bir də İsa bəyin ağsaqqallığı ilə bu prosesləri sonadək apardıq. Müsavat Partiyası üçün həmin çətin günlərdə Vurğun Əyyub ortada olmayıb, olubsa da statist rolunda olub, heç bir məsələnin məsuliyyətini öz üzərinə götürməyib. Qubad İbadoğlu isə heç statist kimi də ortada olmayıb. Keçək xəstəlik məsələsinə. Bəli, mənim səhhətimdə müəyyən problemlər var, ağır formada şəkərli diabetdən əziyyət çəkirəm, gündə üç dəfə insulin vururam. Bir il əvvəl ürəyimdə aorta koronar şuntlama əməliyyatı olub. Hazırda da aorta damarının daralması diaqnozu ilə ölkədən xaricdə müalicədəyəm. Amma həyatım üçün heç bir təhlükə yoxdur. Bunu narahat ola biləcək dostlar üçün deyirəm. Həmin o şəkər xəstəliyini də 2004-cü ildə, aylarla davam edən məhkəmələrdə keçirdiyim stresslə bağlı tapdım. Vurğun bəy, çünki nə sən, nə Qubad İbadoğlu epizodik hallar istisna olmaqla, oralarda, ümumiyyətlə, gözə dəymədiniz".

**V.Hacıbəyli V.Əyyubun onun tərbiyəsində qüsurlar olduğu haqda dediklərinə də sərt cavab yazıb:** "Tərbiyəsizlik hərəkatda olan yoldaşların barədə istintaqa yalan ifadə verməkdir, onlar barəsində şər-şəbədə danışmaqdır. Tərbiyəsizlik nümunəvi keçən bir qurultaydan sonra səsvermənin nəticələrinə kölgə salıb, qurultayın qəbul etdiyi qərarları legitim saymıram bəyanatını verməklə partiyanın nüfuzuna sağalmaz zərbə vurmaq hikkəsini nümayiş etdirməkdir. Qubad İbadoğlunu müdafiə etmək sənin hüququndu və seçkiqabağı kampaniyadakı fəaliyyətinlə bağlı mən heç bir mənfi fikir söyləməmişəm. Mənim etirazım qurultaydan sonrakı qeyri-sağlam mövqelərə, həm də Qubad İbadoğlunun "mən Müsavat rəhbərliyinə qarşı mübarizədə uduzdum" mülahizəsi ilə bağlı olub. Mən bildirmişəm ki, bu mülahizə həqiqətə uyğun deyil. Vəssalam. Öz mülahizəmi isə faktlarla sübut etmişəm. Qubad İbadoğlunu dəstəkləyən və rəhbərlikdə təmsil olunan 36 nəfərin siyahısını mətbuatda çap edən mən deyildim ki? Mən bu olaya münasibət bildirmişəm. Mənim mülahizələrimdə razı olmadığınız məqamlar varsa, ortaya arqument qoyun. Buna görə məni tərbiyəsiz, mənəvi haqqı olmayan və sair adlandırmağın özü sizin hansı tərbiyənin və hansı mənəviyyatın sahibi olduğunuzu çox bariz nümayiş etdirir. Məncə, əlavə şərhə ehtiyac yoxdur".

**Onu da qeyd edək ki, artıq üç gündür Müsavat başqanı Arif Hacılı və sabiq başqan İsa Qəmbər Polşada beynəlxalq konfransdadırlar. Bu səbəbdən Arif Hacılı və İsa Qəmbərin son günlər müşahidə olunan prosesə bağlı mövqeyini öyrənmək mümkün olmadı.**

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 247 (5956) 4 oktyabr 2014

**Hazırda Ukraynada səfərdə olan "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi analitik Elxan Şahinoğlu "Yeni Müsavat"a müsahibə verib. Ağır müharibə şəraitində yaşayan Ukraynanın durumunu yaxından müşahidə edən, bir sıra rəsmilərlə görüşən politoloq "Yeni Müsavat"a olduqca ilginc məqamları bölüşüb.**



# "Kiyevdə Krımdan danışan yoxdur..."

## Elxan Şahinoğlu: "Prezident Administrasiyasında məmurun otağına girəndə gördüm ki..."

***- Elxan bəy, Ukraynaya səfəriniz necə keçir, kimlərlə görüşüb, fikir mübadiləsi aparırsınız?***

- Bu, son aylar Ukraynaya üçüncü səfərimdir. Aprel ayında Donetskə də getmişdim, separatçıların inzibati binaları necə ələ keçirdiklərinin şahidi olmuşdum. Bu mənada Ukraynanın şərqinə səfərim mənə vəziyyəti yerindəcə təhlil etmək imkanı verdi. Hər dəfə Ukraynaya, Kiyevə gələndə xeyli ekspert, siyasi təhlilçi, hakimiyyət nümayəndəsi və ictimai xadimlə görüşürəm ki, fərqli fikirlərin içində özüm üçün bu ölkədəki ümumi mənzərəni müəyyənləşdirə bilim. Hətta düşünürəm ki, bu səfərlərin məntiqi yekunu olaraq kitab yazım, çünki təəssüratlarım böyükdür, kənar müşahidəçi kimi Ukraynada baş verənlərin səbəb və nəticələri haqqında qələmə aldığım çoxsaylı qeydlərim də işə yarasın.

***- Ümumi mənzərədən gəldiyiniz qənaət nədir? Ukraynalıları indi nələr gözləyir?***

- Vəziyyət çox ağırdır. Ukraynanı, paytaxt Kiyevi sözün həqiqi mənasında sərt qış gözləyir. Təsəvvür edin ki, hətta ağır illərdə Kiyevin daimi isti suyu və işığı olub. İndi isə hər ikisinin verilməsində fasilələr yaranır. Rusiyanın qışda Ukraynaya qaz ixracatını pis halda dayandırması, yaxşı halda isə azaltması ehtimalı var. Üstəgəl də Ukrayna Donbasa nəzarəti itirdiyindən bu bölgədən də kömür əldə edə bilməyəcək. Ona görə də Kiyevdə kiminlə görüşdümsə, qışdan necə çıxacaqlarını anlamadıqlarını dedilər. Ancaq ukraynalılar zarafatlarından da qalmırlar, deyirlər ki, necə ildir onları sərt qışla qorxuzurlar, ancaq dona-dona olsa da birtəhər vəziyyətdən çıxırlar. Sadəcə, yenə təkrar edirəm, bu qış əvvəlki qışdan olmayacaq.

***- Rusiyanın basqıları, parçalanma və müharibə şəraitində ölkənin iqtisadi və sosial durumu necədir?***

- Ukraynaya iyunda gələndə 1 dollar 12 qrivin idi, indi 13-ə qalxıb. Söhbət etdiyim mütəxəssislərin rəyinə görə, ilin sonuna qədər 15 qrivinə də qalxa bilər. İnflyasiya sürətlə gedir, əmək haqları aşağıdır. Təsəvvür edin ki, orta aylıq əmək haqqı heç 200 dollara çatmır.

***- 26 oktyabrda Ukraynada parlament seçkiləri keçiriləcək. Müşahidələriniz əsasında seçkilərin nəticələrini necə proqnozlaşdırırsınız?***

- Birinci yeri şəksiz prezident Poroşenkonun bloku götürəcək. Bu blok 30 ilə 40 faiz arasında səs ala bilər. İkinci yerə Radikal Partiyası iddialıdır. Bu partiyanın rəhbərlərindən biri İqor Popovla görüşdüm. Onun sözlərinə görə, partiyası 13 faizə iddialıdır. Sonrakı yerlər uğrunda bərabər səviyyəli mübarizə gedir. Yuliya Timoşenkonun rəhbəri olduğu "Batkivşina", ondan qopan Xalq Cəbhəsinin parlamentə düşmək üçün 5 faizlik baryeri aşacağı proqnozlaşdırılır. Kommunist Partiyası və keçmiş prezident Viktor Yanukoviçin lideri olduğu Regionlar Partiyası isə 5 faizlik baryeri aşa bilməyəcəklər. Bu da ondan irəli gəlir ki, Rusiya Krımı işğal etdikdən və Donbas nəzarətdən çıxdıqdan sonra bu iki partiyaya səs verəcək elektorat qalmayıb. Yəni artıq ruspərəst partiyalar Ukrayna parlamentində mövcudluqlarını itirdilər.

***- Parlament seçkilərinin nəticəsi olaraq Ukraynada siyasi sabitliyin yaranacağını gözləmək olarmı?***

- Çətin. Hətta Kiyevdə çoxlarından eşidirəm ki, bu parlamentin ömrü 1 il və ya il yarımdan çox çəkməyəcək.

***- Niyə?***

- Məsələ burasındadır ki, prezident Poroşenko yeni konstitusiya qəbul etmək istəyir. Bunun üçün isə ona parlamentdə konstitusion çoxluq lazımdır. Poroşenkonun belə bir çoxluğu əldə edib-etməyəcəyi sual altındadır. Digər tərəfdən, yeni parlament peşəkar qıtlığı yaşayacaq. Çünki oliqarxlar keçmiş illərdə olduğu kimi yeni parlamentə də öz adamlarını yerləşdirməyə çalışırlar. Yeni parlamentdə populistlərin sayı da çox olacaq. Məsələn, Oleq Lyaşkonun lideri olduğu Radikal Partiyasının üzvlərinin qanunvericilikdən çox siyasi piarla məşğul olacaqları proqnozlaşdırılır.

***- Prezident Poroşenko çıxışlarının birində Ukraynada oliqarxik sistemi ortadan qaldıracağını vəd etmişdi. Bu istiqamətdə hansısa addımlar atılırmı?***

- Poroşenko Kolomoyski və ya Əhmədov səviyyəsində olmasa da, özü də oliqraxdır. İnsan öz-özü ilə mübarizə aparармı? Poroşenko əlindəki müəssisələri satdığını söyləmişdi. Ancaq mən Kiyevdə kiminlə söhbət etdimsə, Poroşenkonun hələ müxtəlif adamlar vasitəsilə öz müəssisələrinə nəzarət etdiyini söylədilər. Buna baxmayaraq, Poroşenko onu da anlayır ki, indiki sistem Ukraynanı uçuruma aparır. Bu sistemi dəyişmədən iqtisadiyyat inkişaf etməyəcək, sosial sabitlik əldə olunmayacaq. Bu ölkədə orta təbəqə qalmayıb, kasıblaşıb, bütün iqtisadiyyat və əsas müəssisələr oliqarxların nəzarətindədir. Oliqarxlar idarəetmə və qanunverici strukturlara da bu və ya digər dərəcədə nəzarət edirlər. Ona görə də oliqarxların təslim olacağını, öz mövqelərini kiminləsə bölüşəcəyini gözləmək əbəsdir. Ukraynanın müstəqil olduğu 23 ildə heç bir prezident oliqarxlarla bacara bilmədi, və ya üstlərinə getmək istədisə bu alınmadı, güclü müqaviməti görüb geri çəkildilər. Poroşenko da böyük ölçüdə sələflərin acı taleyini yaşamaq istəməz. Ukraynalı professor Eduard Afonin məni maraqlı bir rəqəmlə tanış etdi. 2013-cü ildə ukraynalı oliqarxların ümumi qazancı 53 milyard dollar olub. ABŞ-da isə eyni il üçün bu rəqəm 52 milyard dollar təşkil edib. Amerikalı oliqarxlar və ya böyük şirkət sahibləri mərkəzi hakimiyyətin istəyi əsasında gəlirlərinin 50 faizini sosial istiqamətə yönəldiblər, ukraynalı oliqarxlar isə cəmi 17 faiz dövlətlə paylaşıblar.

***- Belə çıxır ki, Ukraynada Maydan hərəkatı boşuna getdi?***

- Ukrayna son 10 ildə iki inqilab - Maydan hərəkatı yaşayıb. Ancaq kiminlə danışdımsa, nisbətən normal həyatın Leonid Kuçmanın prezidentliyi dövrünə təsadüf etdiyini söylədi. Kuçmanın isə inqilablara heç bir aidiyyəti yoxdur. Kiyevə budəfəki səfərimdə insanların gözündə yorğunluq gördüm. Ukraynalılar nəhayət ki, bu qədər inqilablardan, iztirablardan sonra rahat yaşamaq istəyirlər. Ancaq alınmır ki, alınmır. Birinci Maydan hərəkatı Viktor Yuşşenkonu hakimiyyətə gətirdi. Ancaq o da müsbət nəticəyə nail olmadı, daxili intriqalar onun hakimiyyətinin sonunu gətirdi və vaxtilə ona səs verən böyük çoxluq Yuşşenkoya dəstəkdən imtina etdi. Nəticədə sonrakı seçkidə Yuşşenko 4 faiz biabırçı məğlubiyyətlə üzləşdi. Hazırda Poroşenkonun reytinqi yüksəkdir, partiyası da birinci yerə iddialıdır. Ancaq o da ciddi islahatlar apara bilməsə, Yuşşenkonun aqibətini yaşayacaq. Hələ Yuşşenkonun vaxtında müharibə yox idi, Ukrayna ərazilərini itirməmişdi. Poroşenkonun isə üzləşdiyi problemləri sadalamaqla bitmir. Ərazilər işğal olunub, Rusiya ilə münasibətlər gərgindir, enerji qıtlığı var, büdcədə pul yoxdur, Qərbin kreditləri yetərli deyil, ordu hələ formalaşma dövrünə yeni başlayıb və s. Poroşenkonun bu problemlərdən hansı birini və təlatümlərlə üzləşmədən necə həll edəcəyini söyləmək çətindir.



**"Ukraynada siyasətçilər partiyalarını əlcək kimi dəyişirlər"**

**"Poroşenkonun üzləşdiyi problemləri sadalamaqla bitmir; ərazilər işğal olunub, Rusiya ilə münasibətlər gərgindir, enerji qıtlığı var, büdcədə pul yoxdur..."**

***- Elxan bəy, sizcə, Ukraynada siyasi ab-havanın belə tez-tez dəyişməsinin səbəbi nədir?***

- Bu, ukraynalıların xarakteri ilə bağlıdır. Bunu mən müsbət tərəfə yozuram. Yəni ukraynalıların kiməsə inanmaları hələ o demək deyil ki, həmin siyasətçinin hər səhvini, hər şıltaqlığını bağışlayacaqlar. Ukraynalı seçici son dərəcə diqqətli və baş verənlərə həssasdır, onu aldatmaq mümkün deyil. Öz sözünü seçkidə deyir. Ancaq bunun mənfi tərəfləri də var. Ukraynalı siyasətçilər bəzən populizmə o qədər meyllənir ki, yeganə istəkləri sadəcə xalqın səsini qazanıb parlamentdə oturmaqdır, sonrası isə onları çox maraqlandırmır. Məsələn, budəfəki seçkidə hər blok proporsional siyahılarına onlarla hərbçini salıb. Bu o şəxslərdir ki, separatçılarla savaşda şücaət göstəriblər. Ancaq bu o demək deyil ki, həmin komandirlər parlamentə düşməklə ölkəyə sabitlik gətirəcək və ya bütün iş-güclərini atıb qanunverici fəaliyyətlə məşğul olacaqlar. Komandirin yeri döyüş meydanıdır, qanunverici orqan yox. Ukraynada siyasətçilər partiyalarını, hərəkatlarını əlcək kimi dəyişirlər. Hər parlamentdə eyni sima, ancaq ayrı partiyanın və ya hərəkatın üzvü kimi gəlir. Ukraynada fikir plüralizmi formalaşıb, seçkilər şəffaf və ədalətli keçirilir. Bunlar hamısı müsbət amillərdir. Ancaq ukraynalıların bu azadlıqları bəzən ifrat formaya inikas olunur ki, demokratiya ilə anarxiya arasında sərhəd itir. Belə olan halda Ukraynada siyasi sabitlik əldə etmək çətinləşir. Siyasi sabitlik olmayan yerdə isə nə iqtisadi inkişaf, nə də sosial problemlərin həlli mümkündür.

***- Baş nazir Yatsenyuk necə, seçkidən sonra mövqelərini qoruya biləcəkmi?***

- Yatsenyukun liderlərindən biri olduğu Xalq Cəbhəsi parlamentdə sonuncu yerlərdə qərar tutacaq. Ona görə də seçkinin nəticəsi olaraq Yatsenyuk baş nazir postunu itirə bilər. Buna baxmayaraq, Yatsenyuk bütün qüvvələrə sərf edən fiqur sayılır. Ona görə də belə bir ehtimal var ki, o, seçkidən sonra bir müddət də baş nazir funksiyasını daşıya bilər. Əsas prezidentin Yatsenyukun baş nazirliyə davam edib-etməyəcəyinə qərar verməsidir. Çünki Poroşenko ilə Yatsenyuk arasında ixtilafın konturları görünür. Məsələn, Poroşenko mən "sülh partiyasının üzvüyəm" deyərkən öz xalqına, Qərbə və Moskvaya mesaj verirdi ki, Ukraynada "müharibə partiyası" da var. "Müharibə partiyasında" adı çəkilənlərdən biri də məhz Yatsenyukdur.

***- Kiyevin siyasi və ekspert dairələri Ukraynanın şərqi haqqında nə düşünürlər?***

- Poroşenko öz xoşu ilə atəşkəsə razılaşmadı. Gördü ki, Ukrayna ordusunun Rusiyanın hərb maşını ilə savaşmağa gücü yetərli deyil. Kiyevdə bir çoxları hesab edir ki, atəşkəs müvəqqətidir. Moskva separatçılar vasitəsilə yenidən təxribatlara başlaya bilər. Elə günü bu gün Donbasda yenə atəş səsləri eşidilir, ölən və yaralıların sayı artır. Demək, atəşkəs müvəqqətidir. Ona görə də Kiyev müharibənin ikinci mərhələsinə hazırlaşır. Ukrayna Prezident Administrasiyasında yüksək rütbəli məmurun otağına girəndə gözümə inanmadım. Otaq əsgərlər üçün güllə keçirməyən jilet, geyim və texniki ləvazimatlarla dolu idi. Yəni hamı müharibəyə hazırlaşır. Əsas məsələ odur ki, keçən dəfədən fərqli olaraq Ukrayna ordusu budəfəki toqquşmalara gərək hazır ola, yoxsa yenə itirə-itirə gedəcək. Misal üçün, Rusiyanın Krıma quru yola ehtiyacı var. Qışda Rusiya ilə Krım arasındakı dəniz yolunu işlək vəziyyətdə saxlamaq çətin olacaq. Ona görə də belə bir ehtimal var ki, separatçılar Maruiopul şəhərinə hücuma keçə bilərlər. Bu şəhər strateji əhəmiyyət kəsb edir. Şəhərə hələ ki Ukrayna hərbi birləşmələri nəzarət edirlər. Mariupol Ukrayna üçün həm də ona görə vacibdir ki, buradakı liman vasitəsilə xarici ölkələrdən kömür daşıyan bərələrin lövbər salması mümkündür. Bir sözlə, atəşkəs müvəqqətidir. İş o yerə çatıb ki, Ukraynanın müxtəlif şəhərlərində partizan döyüşlərinə hazırlıq məqsədilə gənclərə xüsusi təlimlər keçilir.

***- Kiyevdə Azərbaycanla əməkdaşlıq, həmçinin GUAM haqqında nə düşünürlər?***

- Problemləri o qədər çoxdur ki, hələ Azərbaycanla əməkdaşlıq və ya GUAM mövzuları haqqında düşünməyə nə vaxtları, nə də enerjiləri var. Halbuki hər görüşdə ukraynalı həmkarlarıma deyirəm ki, yalnız Qərblə inteqrasiyanı düşünürsünüz, ancaq başqa istiqamətlər də mövcuddur, onları da hərəkətə gətirməyə çalışın. Ukraynada sabitlik bərqərar olarsa, Azərbaycanın kapitalı və investisiyaları bu ölkəyə yatırıla bilər. Ukraynanın belə yatırımlara ehtiyacı var. Yaxşı haldır ki, SOCAR Ukraynada fəaliyyətini genişləndirir, hər yerdə yanacaqdoldurma mərkəzlərini görürəm. O ki qaldı GUAM-a, açıq söyləmək lazımdır ki, bu təşkilat yaxın tarixin sınaqlarından çıxa bilmədi. GUAM yalnız Azərbaycan-Gürcüstan strateji əməkdaşlığından ibarətdir. Bu dördlükdə Ukrayna və Moldovanın yeri görünmür.

***- Bəs ölkədə Krımın taleyi barədə hansı fikirlər var?***

- Krım bir az arxa plana keçib. Kiyevdə Krımdan danışan yoxdur. Hamının gözü, qulağı şərqdədir.

**❑ Elşad PAŞASOY**





# Ümid Partiyası toplantı keçirdi

**Oktyabrın 3-də Ümid Partiyasının Mərkəzi Qərargahında partiyanın sədri, millət vəkili İqbal Ağazadənin sədrliyi, müavin və şöbə müdirlərinin iştirakı ilə müşavirə keçirilib.**

Müşavirə sentyabr ayında görülən işlərin yekunlarına həsr olunub. Müavinlərin və şöbə müdirlərinin görülən işlər, bələdiyyə seçkilərinə hazırlığın vəziyyəti və bölgələrə səfərlərlə bağlı hesabatları dinlənilib, gələcək planlar müzakirə olunub. Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə Rəyasət Heyətinin üzvlərinə tapşırıq və tövsiyələrini verib.

Sonda partiya sədri müqəddəs Qurban bayramı münasibətilə xalqımızı təbrik edib.















Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir

## İqbal Ağazadə xalqı təbrik etdi

*Ümid Partiyasının sədri, millət vəkili İqbal Ağazadə Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.*

*Təbrikdə deyilir:*

*Əziz soydaşlarım!*

*Sizi dünya müsəlmanlarının birlik, bərabərlik və həmrəylik bayramı olan müqəddəs Qurban bayramı münasibətilə təbrik edirəm.*

*Ulu Tanrıdan mübarək bayram günlərində etdiyiniz duaların, kəsdiyiniz qurbanların Tanrı dərgahında qəbul olunmasını arzulayıram.*

*23 ildən artıqdır ki, Azərbaycanın 20 faizdən çox torpağı rus-erməni hərbi birləşmələri tərəfindən işğala məruz qalıb. Bu illər ərzində bir milyondan çox soydaşımız bu bayramı doğma yurd-yuvalarında deyil, məskunlaşdıqları yerlərdə keçirmək məcburiyyətində qalıblar. Hələ də sosial-iqtisadi problemlərdən əziyyət çəkən, siyasi baxışlarına görə haqsız təqibə, həbisə məruz qalan vətəndaşlarımız var. İslam sülh və barış dinidir. Ümid Partiyası olaraq biz hər zaman cəmiyyətdə barışın tərəfdarıyıq. Hesab edirəm ki, əgər Azərbaycan cəmiyyətində iqtidar-müxalifət cəbhəsində barış siyasəti yürüdülərsə, yuxarıda qeyd olunan problemlərin həllində də əhəmiyyətli addım atıla bilər.*

*Dəyərli soydaşlarım!*

*Qurban bayramı Tanrıya inamın, sədaqətin, ibadətin, əhdə vəfanın və Uca yaradan qarşısında sınaqdan çıxmanın ən gözəl nümunəsidir. Uca yaradan Həzrəti İbrahim kimi xalqımızı bütün sınaqlardan üzü ağ, alnı açıq çıxartsın!*

*Sizi bir daha Müqəddəs Qurban bayramı münasibətilə təbrik edir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.*

*Qurban bayramınız mübarək olsun!*

*AMIN!*

*Ümid Partiyasının sədri*
*Millət vəkili*
*İqbal Ağazadə*





YENİ MÜSAVAT
N 247 (5956) 4 oktyabr 2014



# Bayramın dadını qaçırdanlar

Zamin HACI
zaminhaci@gmail.com

**“Müəllimlər günü” bayramından qabaq Təhsil Nazirliyindən həmişəki kimi xəbərdarlıq verildi: əgər hansısa müəllim məktəbdə hədiyyə-zad alsa direktorun sağ tikəsini qulağı boyda edəcəyik. Cəzanı mən şişirtmə olaraq, zarafat üçün yazdım, tam elə də deyil. Ancaq bu münasibətin özü çox faciəvidir, Azərbaycan üçün tipikdir. Bizi narahat etməlidir.**

Söhbət nədən gedir? İş orasındadır ki, hər hansı gözəl gün, nə bilim, bayram yaxınlaşanda azərbaycanlılar o bayramın pozitivindən çox neqativinə yüklənirlər. Buna məcbur olurlar. İqtisadi şərtlərin ağırlığı, seçmədiyimiz bir hakimiyyətin altında iyirmi ildən çox yaşamaq, sürünən savaş və itkilər, milli natamamlıq kompleksləri - hamısı təsirini göstərir.

Hər bayram vaxtı Molla Pənah Vaqifin məşhur şeiri millətin dilində əzbər olur:

**“Bayram oldu, heç bilmirəm neyləyim,**
**Bizim evdə dolu çuval da yoxdur.**
**Dügiylə yağ hamı çoxdan tükənmiş,**
**Ət heç ələ düşməz, motal da yoxdur".**

Yeni il gəlir, qəzetlər şaxta babalara verilən lisenziyanın bahalığından tutmuş uşaqlar üçün hədiyyələrin saxtalığına qədər hər şeydən yazırlar, bircə səhifələrdə bayram sevinci görünmür. Qurban bayramı olur, yenə didişmə düşür. Bir qisim qoyunları küçənin ortasında qana bülənd eləyib mənzərəni korlayır, başqa qisim guya qəfildən vegetariana dönür, başlayırlar heyvan kəsənləri qınamağa. Ta Qurban bayramının mahiyyətini yada salan olmur. Eyni hal Ramazan-a da aiddir. Hər Ramazanda əsas mövzu tüpürcəyin orucu pozub-pozmadığı kimi gülünc söhbətlər olur. Nə babat sevinə bilirik, nə də ağlaşa bilirik. Hamısından yarımçıq qalmışıq.

Hələ dövlət yol polisinin bayram qabağı açıqlamaları ki olur, o lap müsibətdir. Guya bunlar “Filan yolu getməyin, bayramda maşını evə qoyub piyada gəzin” deyəndə camaat dərhal əməl edir. Heç olmazsa susun, ürəyimizi sıxmayın. Tıxac olan ərazilərə gedib yolu açmaq əvəzinə “ora getməyin, orda canavar var” deyirlər, nəticədə Qırmızı Papaq nənəsinə bayram sovqatı apara bilmir.

Yenə qayıdıram Təhsil Nazirliyinin gülməşəkər açıqlamasına. Məncə, Oğuz elimizin adət-ənənələrinə, milli mentalitetimizə sayğı ilə yanaşan bir gənc nazir olsaydı, heç vaxt belənçik manqurtlaşdırma yönümlü xəbərdarlıq eləməzdi. Bayram münasibətilə bir növ, maliyyə amnistiyası eləmək, “gedin uşaqlardan və valideynlərdən nə istəsəniz alın, hətta tutun soyun, yağmalayın” bəyanatı verməк olmazdımı?

Bayram bayram kimi keçməlidir, yoxsa quru-quru məktəbə gedib-gəlməyin nə mənası? İldə bir dəfə yazıq müəllimlərin üzünün gülmək üfüqləri açılır, onu da nazirlik batırır. Onsuz da il uzunu bizim məktəblərdə halallıq, düzgünlük, “Təmiz Binəqədi” layihəsi davam edir, imkan verəydiniz barı bircə gün - 5 oktyabrda pul yığardılar.

Yeri gəlmişkən, 5 oktyabr “Müəllimlər günü”nün necə yaranması haqda sorğu keçirtsən əminəm ki, bunu bilən müəllimlərin sayı 5 faizi adlamaz. Ancaq bilmək vacibdir. 1966-cı ilin 5 oktyabrında BMT-nin iki qurumu - YUNESKO və Beynəlxalq Əmək Təşkilatı dünya dövlətləri üçün müəllimlər haqda tövsiyə sənədi hazırlayıblar. Sənəd müəllimlərin normal əmək haqqı ilə təminindən tutmuş təhsil prosesinin sivil qaydalara uyğun qurulmasına qədər yüzlərlə vacib məsələni nəzərdə tutur. Azərbaycan müstəqillik qazanandan sonra bu tövsiyəni imzalayıb, ancaq gəlin görək nə dərəcədə əməl edilir? Təhsilə ayrılan büdcə vəsaiti polisə və qoçulara ayrılan vəsaitdən qat-qat az olur. Müəllimin maaşı və sosial müdafiəsi hansısa yol polisi çavuşunun hüquqlarından təhqiramiz dərəcədə aşağıdır. Mən burada yol polisini aşağılamaq fikrində deyiləm, qəti belə anlaşılmasın. Əksinə, başqa hüquq-mühafizə orqanlarına baxanda yol polisi mələk kimi bir şeydir. Sadəcə, onu demək istəyirəm ki, heç olmazsa yol polisinin rəhbərliyi bayram günlərini əməkdaşların burnundan gətirmir, “Polis günündə pul alan olsa belə-belə eləyərik” bəyanatı vermir.

Sonda müəllimləri “Müəllimlər günü”, müsəlmanları Qurban bayramı və təbiətsevərləri də Beynəlxalq Heyvan Hüquqları Günü münasibətilə qutlayıram. Hamısı gəlib eyni vaxta düşübdür, elliklə şadlanaq, əylənək, pul yığaq, ət yeyək... Çünki bayaqkı şeirin axırı belə bitirdi:

**“Bizim bu dünyada nə malımız var,**
**Nə də evdə sahibcamalımız var.**
**Vaqif, öyünmə ki, kamalımız var,**
**Allaha şükür ki, kamal da yoxdur".**

# Rusiya ilə “böyük bazarlıq” sıfırlanma ərəfəsində



# Azərbaycan Putinin qorxulu planında - şərh

## Rəsmi Bakının Qərblə münasibətlərinin qırılma ərəfəsinə gəlməsi ölkəmizi Kreml üçün asan “yem”ə çevirə bilər; Rusiyanın Azərbaycanı rahat qazanması üçün heç vaxt olmadığı qədər şərtlər yetişib

**Rəsmi Bakının Qərblə - ABŞ və Avropa ilə, həmçinin mötəbər beynəlxalq təşkilatlarla münasibətlərində gərginlik davam edir. İki tərəfdən bəzi epizodik və formal jestlər (məsələn, yubileylərlə bağlı quru təbriklər və s.) nəzərə alınmazsa, son həftələr ərzində bu münasibətlərdə yaxşıya doğru kardinal heç bir dəyişiklik qeydə alınmayıb.**

Qənaətimizə ən parlaq sübut kimi, Milli Məclisin axırıncı iclaslında səslənən sərt anti-Qərb ritorikasını və bəyanatını göstərmək olar. Maraqlıdır ki, bu fonda Qərb də tənqidi ritorikasını gücləndirir. Belə ki, parlamentdəki kəskin etirazlar fonunda Azərbaycan hakimiyyəti bu dəfə Avropa Şurasında hədəf götürülüb, xarici işlər naziri Elmar Məmmədyarov ölkədə insan haqlarının durumu ilə bağlı çətin suallar qarşısında qoyulub. Az öncə isə Avropa Parlamenti hakimiyyətlə bağlı sərt qətnamə qəbul eləmiş, onun ardınca dünyanın ən qüdrətli dövləti olan ABŞ-ın prezidenti Barak Obama Azərbaycanın adını “qara siyahı”da çəkmişdi.

Bir çox təhlilçilərə görə, Obamadan sonra da rəsmi Bakının anti-Qərb məzmunlu siyasətini davam etdirməsi, üstəlik, bunu Rusiyaya yönəlik aşkar reveranslar fonunda etməsi *(onlardan sonuncusu Həştərxan samitində kənar dövlətlərin Xəzər dənizində silahlı qüvvə saxlamasını yasaqlayan bəyanatın qəbuludur)* hakimiyyət də daxil Azərbaycan üçün yaxşı perspektiv vəd eləmir. Hətta analitiklər mövcud vəziyyəti qırılma nöqtəsi kimi dəyərləndirirlər.

Yaranmış durum isə heç şübhəsiz, ən çox Moskvanın maraqlarına işləyir - fərq eləməz, bu vəziyyət Azərbaycan hakimiyyətindəki odioz “rusofillər”in hesabına yaranıb, yoxsa Kremlin özünün tətbiq elədiyi məkrli siyasi texnologiyanın nəticəsidir. Hər halda, kənardan müşahidə edilən gerçəklik ondan ibarətdir ki, Azərbaycan gözlənildiyindən də böyük sürətlə Rusiyanın ağuşuna tərəf gedir.

Əslində belə durum ən əvvəl hakimiyyətin özünün perspektiv maraqlarına ziddir. Çünki: **1.** Bu, onun iki qlobal güc arasında manevr imkanlarını daraldır. **2.** Azərbaycanın əsas dərdi olan Qarabağ məsələsində Kremlə “böyük bazarlıq” imkanlarını sıfırlayır - Qərblə münasibətlər pozulandan sonra Kreml hansısa Qarabağ şərtini qəbul edərmi? Məntiqlə də Bakının yalnız bir çıxış yolu qalıbsa, Azərbaycanın səmti onsuz da şimaladırsa, Putin niyə də Avrasiya layihələrinə qoşulmağın qarşılığında Qarabağa dair hansısa vədlər versin?

Sözgəlişi, bir vaxt Putinin ölkəmizlə ilgili “B variantı”nın mövcudluğu haqda yazmışdıq. O zaman ehtimal etmişdik ki, Bakı layihələrə xoşluqla qoşulmasa, ona qarşı təzyiq-şantaj siyasəti işə salına bilər. Belə görünür ki, bu variant öz aktuallığını itirir. İndi şərti desək, Putinin “C variantı” gündəmə gəlməkdədir - Azərbaycana xüsusi vəd-filan vermədən, onun ehtiyaclarına məhəl qoymadan, xüsusi əziyyət çəkmədən Güney Qafqazın bu açar ölkəsinə “sahiblənmək”, onun Qərblə münasibətlərini birdəfəlik korlayıb, bu münasibətlərin bərpasını geridönməz eləmək...

****

Bəzi məlumatlara görə, artıq hakimiyyət daxilində Rusiyaya ifrat yaxınlaşmanın hansı sonuclar verə biləcəyinin fərqinə varmağa başlayıblar. Şərti desək, iqtidardakı “praqmatik qanad” bizə çatan bilgilərə görə, Kremlə geniş meydan tanınmasına qarşıdır. Onlar anti-Qərb ritorikasına bir an öncə pauza verməyin, Vaşinqton və Brüssellə münasibətləri qismən yumşaltmağın tərəfdarıdırlar. Təkcə Qarabağa görə yox, elə birinci hakimiyyətin öz maraqlarına görə.

❑ **Siyasət şöbəsi**

# Vahid Ələkbərovun adı çirkli pulları yumaqda hallandı

## Prokurorun sözlərinə görə, vergidən yayınma və pulların yuyulmasından dəyən zərər 290 milyon dollar kimi qiymətləndirilir



Vahid Ələkbərov

**Azərbaycanlı iş adamı Vahid Ələkbərova məxsus “LUKoyl” neft şirkətinin Rumıniyadakı ofislərində axtarış aparılıb. “Qafqazinfo” xarici KİV-ə istinadən xəbər verir ki, prokuror, polis və gömrük əməkdaşlarının iştirakı ilə aparılan axtarış vergi ödəməkdən yayınma və çirkli pulların yuyulması ilə bağlı başladılan araşdırma çərçivəsində baş verib. Prokurorun sözlərinə görə, araşdırmanın hazırkı mərhələsində vergidən yayınma və pulların yuyulmasından dəyən zərər 290 milyon dollar kimi qiymətləndirilir.**

“LUKoyl”un nümayəndəsi də Rumıniya ofislərindəki axtarışı təsdiqləyib. O bildirib ki, axtarış nəticəsində tələb edilən sənədlər götürülüb.

Analitiklər isə bildirirlər ki, əgər fakt təsdiqini taparsa belə, bu, şirkətin Rumıniyadakı fəaliyyətini dayandırması anlamına gəlməyəcək.

# Yanukoviçə Rusiya vətəndaşlığı verildi



Viktor Yanukoviç

**Rusiya prezidenti Vladimir Putin Ukraynanın devrilən prezidenti Viktor Yanukoviçə, keçmiş baş nazir Nikolay Azarov və baş prokuror Pşonkanın ailələrinə bu ölkənin vətəndaşlığını təqdim edib. Ukrayna mətbuatının məlumatına görə, bu haqda Ukraynanın daxili işlər nazirinin müşaviri Anton Geraşenko öz facebook səhifəsində yazıb.**

Geraşenkonun sözlərinə görə, Yanukoviçin və Azarovun ailəsi Putinlə onlara Rusiya vətəndaşlığı verilməsi ilə bağlı razılığa gəliblər, onlar da özlərini rahat və toxunulmaz hesab edirlər.

Geraşenko bildirib ki, operativ mənbədən əldə etdiyi məlumata görə, keçmiş məmurlara vətəndaşlıq Rusiya prezidentinin xüsusi gizli qərarı ilə verilib: “Onlar Ukraynanın maraqlarını satdıqlarına görə mükafatlandırılıblar”.

# Rusiya Qırğızıstanın neft şirkətini satın aldı

**Rusiyanın dövlət neft şirkəti “Rosneft” Bişkek Neft Şirkətini (BNK) satın aldığını bildirib. Avropa.info xəbər verir ki, “Rosneft”in rəsmi internet saytında yer alan bəyanatda şirkətin BNK səhmlərinin hamısını satın aldığı bildirilib. Açıqlamada BNK-nın satın alınmasına dair çərçivə sazişin “Rosneft” İdarə Heyətinin sədri İqor Seçinlə Bişkek Neft Şirkətinin baş direktoru Aleksandr Niyazov arasında 19 fevral 2014-cü il tarixdə imzalandığı xatırladılıb.**

Satın almaqla yanaşı şirkətin Qırğızıstanın şimalında bir stansiyasına və geniş şəbəkə infrastrukturuna malik olduğu vurğulanıb.

# Kramer və Kozlariç ABŞ-ı Azərbaycan rəsmilərinə sanksiya tətbiq etməyə çağırır

## "Hətta Amerika vətəndaşları və beynəlxalq QHT-lər də bu genişlənən repressiya şəbəkəsinin toruna düşüblər"

**"Freedom House" insan haqları təşkilatının icraçı direktoru Devid Kramer və ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Riçard Kozlariç "The American Interest" məcmuəsinə birgə məqalə yazıblar. Məqalədə qeyd olunur ki, Qərbin diqqətinin İŞİD terror qrupuna və Ukrayna böhranına yönəldiyi bir vaxtda prezident İlham Əliyevin hökuməti Azərbaycanda qısnamalar, təhdidlər, döymələr və həbslər vasitəsilə fərqli düşüncə üzərinə hücumu genişləndirib: "Hətta Amerika vətəndaşları və beynəlxalq QHT-lər də bu genişlənən repressiya şəbəkəsinin toruna düşüblər. Bu hərəkətlər cavabını gözləyir".**


Devid Kramer


Riçard Kozlariç

Məqalədə deyilir ki, indi Azərbaycan prezidenti İlham Əliyevin adını Avropanın son diktatoru, Belarus prezidenti Aleksandr Lukaşenko və insan haqlarına görə son onilliklərdə ən pis ölkə olan Rusiyanın prezidenti Vladimir Putinlə bir cərgədə yazmaq olar: "Əliyev hökumətinin 100-dək siyasi məhbusu var və bu, Belarusla Rusiyadakı siyasi məhbuslarının sayından iki dəfə çoxdur. Azərbaycan hakimiyyəti öz tənqidçilərinə, jurnalistlərə, müxalifətçilərə və həm də qərblilərə qarşı getdikcə daha təcavüzkar olur".

**AzadlıqRadiosunun məlumatına görə, məqalədə deyilir ki, Bakı Qərbdən, beynəlxalq rəsmilərdən və təşkilatlardan gələn narahatlıq və tənqidləri qulaqardına vurur:** "Hətta prezident Obamanın QHT-lərlə rəftar barədə bu yaxınlarda səslənmiş tənqidinin də təsiri olmayıb. Bu narahatedici meyli dayandırmağın ən yaxşı yolu Əliyev rejiminə cəzaların tətbiq edilməsidir".

**Məqalə müəllifləri ABŞ-ı qanunun aliliyi və hesabatlılıq barədə 2012-ci ildə qəbul edilmiş Sergey Maqnitski (həbsdə işgəncələrdən ölmüş rusiyalı hüquqçu - red.) qanununun Azərbaycan hakimiyyətinə tətbiqinə çağırırlar:** "Yalnız Əliyevlərin və yaxın çevrəsinin xaricdəki mülkiyyətinin dondurulması, onların üzərinə səfər qadağalarının qoyulması vəziyyəti dəyişdirə bilər".

# Fransa Azərbaycanı niyə küsdürür?

**Fransa Milli Assambleyasının üzvü Fransua Roşeblounun Azərbaycanın işğal olunmuş ərazilərinə səfəri və 23-26 sentyabr tarixlərində Parisdə keçirilmiş beynəlxalq turizm sərgisində Ermənistana aid pavilyonda qondarma Dağlıq Qarabağ rejiminin də təmsil olunması rəsmi Bakının sərt etirazına səbəb olub.**

Bununla əlaqədar Azərbaycanın Fransadakı səfirliyi tərəfindən Fransanın Xarici İşlər Nazirliyi, Fransa Milli Assambleyası və turizm sərgisinin təşkilatçısı olan şirkətə müvafiq olaraq etiraz notası və məktubları göndərilib. Qeyd edək ki, bundan öncə **XİN-in mətbuat katibi Hikmət Hacıyev** "Yeni Müsavat"ın sualına cavabında məsələnin araşdırıldığını demişdi. Nazirlik sözçüsünün bildirdiyinə görə, notada qeyd olunur ki, Fransa prezidenti Fransua Ollandın təşəbbüsü ilə bu ilin oktyabr ayının sonunda Fransada Azərbaycan və Ermənistan prezidentlərinin görüşünün keçirilməsi ərəfəsində erməni diasporunun təsiri altında olan Fransua Roşebloun kimi şəxslərin məqsədyönlü şəkildə belə qeyri-qanuni əməllərə yol verməsi ilk növbədə Fransaya qarşı törədilmiş təxribatçılıq cəhdidir. "Ermənistan və Fransadakı erməni diasporunun təsiri altında olan və şovinist və irqçi baxışlara malik olan Fransua Roşebloun Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən yaradılmış qondarma rejim ilə qurduğu təmaslarına görə, eləcə də separatizm, etnik təmizləmə, insaniyyətə qarşı cinayətlər, işğal və təcavüzün təşviqinə rəvac verməkdə bilavasitə rol oynayır"-deyə, etiraz notasında bildirilir.

Ancaq təəccüb doğuran budur ki, Fransa və Azərbaycan arasında kifayət qədər mədəni, humanitar, iqtisadi əlaqələr var. Fransa prezidentinin iştirakı ilə Bakıda fransız liseyinin açılması, Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə Fransanın Luvr Muzeyinin, Versal sarayının təmir olunması kimi faktlar iki ölkə arasındakı əlaqələrin nə dərəcədə ciddi inkişaf etdiyinin göstəricisidir. Fransanı Ermənistanla daha sıx tellərin bağladığı da sirr deyil. Azərbaycanın Fransa üçün etdiklərinin müqabilində onu incidən addımların atılması da yolverilməzdir. Elə isə Paris nədən buna gedir?

**XİN-in mətbuat katibi Hikmət Hacıyev bildirdi ki, Fransada fəaliyyət göstərən bir sıra dairələr, xüsusilə də Ermənistan, erməni diasporu və onun təsiri altında olan şəxslər anti-Azərbaycan mövqeyini davam etdirir. Odur ki, rəsmi Bakı bunu Parisin rəsmi mövqeyi kimi qəbul etmir. H.Hacıyevin fikrincə, Fransua Roşebloun kimi şəxslərin təxribatçı əməlləri iki ölkə arasındakı əlaqələrə xələl gətirməyə yönəlib:** "Fransa prezidentinin Azərbaycan və Ermənistan prezidentlərinin görüşlərini təşkil etmək ərəfəsində ermənipərəst qüvvələrin atdığı addımlar ilk növbədə Fransa hökumətinin özünə qarşıdır". **H.Hacıyev qeyd etdi ki, Fransa ilə Azərbaycan arasında mehriban münasibətlər və qarşılıqlı, faydalı əməkdaşlıq münasibətləri var:** "Azərbaycan-Fransa əlaqələri inkişaf edir. Burada mədəni və humanitar əlaqələrimizi xüsusilə qeyd etmək lazımdır. Burada bizim çox dinamik əməkdaşlığımız var və bu münasibətlərdə Heydər Əliyev Fondunun rolu xüsusilə qeyd edilməlidir. Amma erməni diasporu və onun təsiri altında olan dairələr bu əlaqələrə daim zərbə vurmağa çalışır".

**Konfliktoloq Elxan Mehdiyev isə Fransanın azad, demokratik ölkə olduğu üçün bütün məsələlərə açıq olduğunu vurğuladı:** "Fransada azərbaycanlıların və ermənilərin dostları var, amma onların erməni dostları daha çoxdur. Fransızlarla ermənilərin bağlılığını götürsək, görərik ki, Fransa hələ Ermənistanın lehinə çox işlər görmür, işğalı gücləndirən çox hərəkətlər etmir. Fransa parlamentində ermənilərlə dostluq edən, təəssübkeşlik edən deputatlar da kifayət qədərdir. Onlar erməni lobbisinin dəvəti, maliyyəsi ilə Dağlıq Qarabağa səfər edir. Parlamentdə onlarla deputat var ki, onlar birmənalı şəkildə erməniləri dəstəkləyir, Türkiyənin və Azərbaycanın əleyhinə çıxış edir". **E.Mehdiyev rəsmi Bakının Parisə notasını normal sayır:** "Azərbaycan tərəfi bu məsələdə düzgün davranır. Azərbaycan əraziləri ilə bağlı məsələdə sözsüz ki, birmənalı mövqe qoyulmalıdır. Sonuncu nota bu məsələdə mövqeyin dəyişməz və sərt olduğunu bir daha nümayiş etdirir. Amma onu da unutmayaq ki, Azərbaycan Fransaya 100 milyard da yatırsa, bu cür hallar yenə olacaq. Çünki ermənilərin orda xeyli tərəfdarları var".


**Hikmət Hacıyev:**
"Erməni diasporu və onun təsiri altında olan dairələr bu əlaqələrə daim zərbə vurmağa çalışır"


**Elxan Mehdiyev:**
"Azərbaycan Fransaya 100 milyard da yatırsa, bu cür hallar yenə olacaq"

❑ **Cavìd TURAN**



## Erməni milyonçu-oğru Fransanı bir-birinə vurdu

**Fransa polisi rus həmkarları ilə birlikdə məşhur erməni art-diler, milyonçu Qarik Basmacyanı axtarır. ANS PRESS-in Ermənistan mətbuatına istinadən verdiyi məlumata görə, erməni milyonçu vaxtilə SSRİ-yə Ermitaj və Tretyakov qalereyasında nümayiş etdirmək üçün dəyəri 100 milyon olan unikal rəsm əsərləri gətiribmiş. Moskvada danışıqlar aparan erməni art-diler sonradan qəflətən yoxa çıxmışdı. Onun Fransadan gətirdiyi misilsiz rəsm əsərləri isə hələ də Ermitajda saxlanılır.**

Artıq bu sirli işdə irəliləmənin olduğu bildirilir. Fransada keçmiş boksçu, SSRİ vətəndaşı olan Aleksandr Podlesnıy saxlanılıb. Onun erməni milyonçunun izsiz-soraqsız yoxa çıxmasında əli olduğu bildirilir.

Qeyd edək ki, Qarik Basmacyan 1947-ci ildə Yerusəlimdə doğulsa da 1960-cı illərdə İrəvana gəlmişdi. 1977-ci ildən Parisdə yaşamağa başlayan erməni sonradan Avropada tematik topluların ən böyük melliflərindən birinə çevrilmişdi. Onun sərgiyə çıxarmaq üçün Parisdən SSRİ-yə apardığı rəsm əsərlərinin müəyyən hissəsini götürərək digər ölkəyə qaçdığı ehtimal edilir.

# Rusiya küləkləri nə vəd edir?



**Azər RƏŞİDOĞLU**

**Azərbaycan siyasətində "Rusiya amili" yenidən önəm kəsb etməyə başlayıb. ABŞ prezidenti Barak Obamanın rəsmi Bakını tənqid etməsi fonunda rus millətçiliyinin simvolu olan Vladimir Jirinovskinin Azərbaycanda təmtəraqla, ən yüksək səviyyədə qəbul edilməsi Qərbə qarşı açıq demarş kimi qiymətləndirildi.**

Moskvaya doğru üz çevirməklə sanki rəsmi Bakı nümayiş etdirir ki, Rusiyanın Azərbaycandakı proseslərə təsir imkanları xeyli dərəcədə böyükdür, odur ki, seçim Rusiyanın xeyrinədir. Belə bir seçim də böyük dəyişikliyə səbəb ola bilmir.

Məsələ ondadır ki, indiki şəraitdə rəsmi Bakıya edilən təzyiqlər Qərb və Rusiyanın müştərək layihəsi kimi təqdim olunur. Göründüyü kimi, Azərbaycan təklənmiş durumdadır. Belə vəziyyətdə, faktiki olaraq hamının etirazını göz önünə almaq və Rusiyaya doğru addımlamaq gələcək gərginlikdən xəbər verir. İslahatları həyata keçirməyə, narazı tərəflərin şərtlərini yumşaltmağa yönəlmiş addımlar atmağa siyasi iradə lazımdır.

Bu baxımdan, rəsmi Bakının davranışı çoxsaylı suallar doğurur. Belə ehtimallar da mövcuddur ki, Rusiyanı təzyiqlərə təhrik etmək rəsmi Bakının manevrləridir.

Belə ki, iqtidar daima coğrafi şəraitindən yaraqlanaraq, "düşmən qonşular" əhatəsində yerləşdiyini Qərbə nümayiş etdirib və bunun dividentlərini qazanıb. Hazırda isə Qərbin Azərbaycan iqtidarına təzyiqlərinin arıtdığı bir zamanda yenidən Rusiya tərəfindən sıxıldığını, bunun isə ABŞ-ın enerji layihələrinə ciddi zərbələr endirdiyini nümayiş etdirmək Bakının aldadıcı manevrləri ola bilər. Yəni Rusiya Qərbin enerji layihələrinin təminatçısı kimi çıxış edən Azərbaycan hakimiyyətini "bitirmək" istəsə, ikincinin rəsmi Bakıya dəstək verməkdən başqa yolu qalmır. Lakin əgər "Azərbaycan məsələsi"ndə tərəflər razılığa gəlsələr, vəziyyət daha da ağırlaşa bilər.

Ölkədə qəribə situasiya yaranıb. Sanki prosesləri Rusiyanın xüsusi xidmət orqanları idarə edirlər. Əgər belədirsə, o təqdirdə ölkəni daha faciəli perspektiv gözləyə bilər.

Hakimiyyətin seçəcəyi yol hamını düşündürür. Sağlam məntiq və ölkənin gələcəyi Rusiyanın "beşinci kolon"unun təmizlənməsini zəruri edir.

Rusiya öz təsir agenturasının dili ilə tələblərini açıqlayır - rus ordusu yenidən Azərbaycana qayıtmalıdır, Bakı enerjidaşıyıcılarında Moskva ilə daha sıx əməkdaşlıq etməli, siyasi iradəsinin önəmli hissəsini "könüllü" şəkildə "böyük qardaşa" həvalə etməlidir.

Ən acınacaqlısı isə odur ki, Rusiya qoşunlarını duz-çörəklə qarşılamaq istəyənlər Türkiyəni düşmən kimi təqdim edir və Azərbaycanın yeganə strateji müttəfiqi ilə münasibətlərini korlamağa çalışırlar.

Bir sözlə, ölkədə "şimal küləkləri" indi daha bərk əsir və hər an qasırğa qopması ehtimalı mövcuddur. Qasırğanın hansı fəlakətləri gətirəcəyini isə ehtimal etmək o qədər də çətin deyil.

Əminliklə vurğulamaq olar ki, Rusiya öz təhdidlərini bundan sonra da davam etdirəcək. Bu təhdidlər rəsmi Bakını qərbyönümlü siyasi kursdan üz çevirməyə vadar etməyə yönələcək.

Bu hədələrə isə Qərbin reaksiyası da önəmli olmalıdır. Rusiya faktiki olaraq müstəqil ölkəni işğal ilə hədələyir.

Moskvanın şantajlarının artdığı bir vaxtda Azərbaycanın xarici siyasətində baş verən dəyişikliklər nə dərəcədə məqbuldur? Rusiyanın təhdidlərinin genişləndiyi bir vaxtda Türkiyə və Avroatlantik məkanla əməkdaşlıq daha məqbul görünür.

Heç də təsadüfi hesab oluna bilməz ki, hakimiyyətdəki "beşinci kalon" tam hücuma keçib. Artıq onlar hakimiyyəti də rusiyapərəst xətt yeritməyə vadar edirlər. İndiki xəttin qarşısı alınmasa, daha ağır fəsadlar törədə bilər. Ehtimal etmək olar ki, Azərbaycanın gələcəyini düşünən qüvvələr məhz Qərblə inteqrasiya yolunu seçəcəklər...

YENİ MÜSAVAT
N 247 (5956) 4 oktyabr 2014



# Bakı təkcə gəzmək üçündürmü?

**Hüseynbala SƏLİMOV**

**Tarixin elə dövrləri olub ki, onlar bəşəriyyətin yaddaşında əbədi izlər buraxıblar. Bu mənada İntibah çox xarakterikdir. Bəlkə də ondan da əvvəl humanizm və insanpərvərlik bir dəyər kimi mövcud olub. Amma onların təntənəsi daha çox İntibahla bağlıdır.**

Qərbdə İntibahla bağlı bir yəqinlik var. Belə hesab edilir ki, ilk dəfə orta əsrlər Avropasında elm və incəsənət böyük sıçrayış edərək insanların diqqətini əbədi problemlərə - azadlığa, ədalətə və humanizmə yönəltdi...

Şərq isə bir qədər başqa məsələdir. Burada da inkişaf, tərəqqi olub, amma o bir qədər əvvəldə qeyd etdiyimiz Avropada olduğu kimi sinxronluq təşkil etməyib: sərhədlər mütəhərrik olub, inkişaf fasilələrlə bu və ya başqa sülalənin yaratdığı imperiyalarda müşahidə edilib...

Lap əslində qədim Yunanıstanda insanlar artıq bir çox məsələlərə işıq salmışdılar. Ona görə də orta əsr Avropasında bizim diqqətimizi cəlb edən daha çox humanizm olub. Şərqdə, xüsusən də Azərbaycanda bu humanizmin izlərini müxtəlif siyasi-dini cərəyanlarda tapmaq mümkündür - xürrəmilər və hürufilər müəyyən məsələlərdə hətta Avropanı da qabaqlamışdılar...

Ona görə də indi daha çox sintezdən danışırlar - ağıllı insanlar Qərbin və Şərqin təcrübəsində dəyərli nəsə varsa hamısını bir yerə toplamağa çalışırlar...

Düşünürdük ki, bu günlərdə işə başlayan 4-cü Beynəlxalq Humanitar Forum da bu missiyaya xidmət edəcək.

Düzdür, bunun əksini fərz etmək üçün əlimizdə elə bir dəlil yoxdur. Amma bu forum harada keçirilir? Orada "musiqi"ni kim sifariş edir?..

Bütün bunları düşünəndə pessimizmə yuvarlanmaqdan başqa çarə qalmır. İndi elə bir dövrdür ki, hər bir dövlətin pasportu orada insan haqlarının və demokratiyanın vəziyyəti olmalıdır. Qlobal humanitar problemləri müzakirəyə çıxarmağa toplaşmış insanlar da ilk öncə bu pasporta baxmalıdır...

Artıq bir dəfə qeyd etmişdik ki, Azərbaycanda siyasi və ictimai təzyiqlərin pik dövrü ölkənin Avropa Şurasının nazirlər komitəsinə başçılıq etdiyi dövrə təsadüf etdi. Bu, bəlkə də son illərin ən böyük absurdudur. O mənada yox ki, əvvəllər bu ölkədə hər şey qaydasında olurdu. Yox, belə deyildi. Burada həmişə, daha doğrusu, son 21 ildə ictimaiyyət və siyasət fəallarını təqib etmək adi bir hal olub. Məsələnin absurd tərəfi isə budur ki, Avropada da mötəbər qurumları kimə həvalə etdiklərinin fərqində deyillər...

"Humanitar" sözü də bizim üçün "humanizm" sözü ilə assosiasiya yaradır və güman edirdik ki, belə forumlarda bəşəriyyətin son illərdə bu istiqamətdə nələrə nail olduğu ciddi şəkildə müzakirə mövzusu olmalıdır...

Amma əvvəlki forumların təcrübəsindən bir nəticə hasil etmişik - bu tədbirə toplaşanlar daha çox bir-iki günlüyə istirahət etmək və necə deyərlər, azcacıq da olsa, "havalarını dəyişmək" üçün foruma qatılırlar.

Təbii ki, bu, yalnız təəssüf doğura bilərdi. Bilirsiniz, prinsipsizliyə heç bir halda bəraət yoxdur - adamın müəyyən həyat prinsipləri olmalıdır. Amma yenə də bir qədər güzəştə gedəndə bəzi insanların, xüsusən də bəzi azərbaycanlıların hakimiyyətə yarınmasını haradasa başa düşmək olar - onlar uşaqlarının, nəvələrinin və kötükcələrinin "problem"lərini həll etməklə məşğuldurlar...

Amma bir də görürsən ki, sənin bu vaxta qədər canlı əfsanə saydığın bir adam başlayır elə bəlağətli təriflər yağdırmağa ki, adam məəttəl qalır.

Bakıda onlara nə deyirlər? "Azərbaycan tolerant ölkədir, burada dini və etnik zəmində qarşıdurma yoxdur!".

Nə olsun? Məgər bu, hər şey deməkdirmi? Üstəlik, bunu heç bir halda indiki hakimiyyətin uğuru kimi təqdim etmək olmaz, ona görə ki belə bir vəziyyət daha çox azərbaycanlıların çoxəsrlik ənənələri ilə bağlıdır...

Əslində bu və ya başqa qədər ekstremizm hər yerdə var. Dünyanın elə ölkəsini tapmaq olmaz ki, orada azacıq da olsa, ekstremizm olmasın. Bir-iki il bundan əvvəl Norveçdə bir ekstremist bir dəfəyə onlarla adamı qətlə yetirmişdi...

İndi nə edək? Duraq deyək ki, Norveç tolerant ölkə deyil? Yox, məsələ heç də bunda deyil. Bir az əvvəldə yazdıq ki, hər bir ölkənin pasportu orada demokratiyanın və insan haqlarının vəziyyəti olmalıdır. Ona görə də məhz elə bu detala diqqət yetirməyə ehtiyac vardı...

İndi hər yerdə hər şeyə mədəniyyət kontekstindən baxırlar. Siyasət də, elə ictimai quruluş da mədəniyyətin bir hissəsi hesab edilir - "siyasi mədəniyyət" ifadəsi boş yerdən yaranmayıb ki!..

---



# "Yüksək sürətin axırı budur"

## Əməkdaşlarımız Göyçayda toyu yasa döndərən terror kimi yol qəzasını araşdırdı; nişanlı qızın babası: "Bizim yaşadığımız bu faciə sürət həddini aşanlara dərs olsun"

**Azərbaycan yollarında illərdir "müharibə" gedir. Elə bir gün yoxdur ki, ölkə mediası hər səhəri bir ağır yol qəzası xəbəri ilə açmasın. Son günlər dəhşətli qəzaların sayı durmadan artmaqdadır ki, bu da qorxunc bir statistikanın yaranmasından xəbər verir. Təkcə ötən şənbə və bazar günü Azərbaycan yollarında 17 yol qəzası baş verib.**

Qəzalar nəticəsində 13 nəfər ölüb, 27 nəfər yaralanıb. Ən dəhşətlisi isə Göyçay rayonunda toy karvanının qəzaya uğraması nəticəsində 9 nəfərin dünyasını dəyişməsidir. Göyçaya gedib, bu "yol terror"nda ölənlərlə də bağlı reportaj hazırladıq.

Sentyabrın 29-u Göyçayın Şahsoltanlı kəndində Xankişiyevlər ailəsində toy əhval-ruhiyyəsi olub. Səhər tezdən hazırlıqlara başlayan, yemək-içmək təşkil edən, süfrə açan ailənin qızına Qurban bayramı ərəfəsində cehiz gətiriləcəkdi. İki ildir ki, Ağsu sakini Şəhriyar Bədəlovla nişanlı olan Ülkər Xankişiyeva bu mərasimi gözləyirdi...

Amma Ağsunun Cəlayır kəndindən gələn bəyin qohum-əqrəbası Göyçayın girişində ağır qəzaya uğrayır. Şahsoltanlı kəndinə gedən toy karvanında sürətlə hərəkət edən avtomobil qarşıdan gələn maşınla toqquşur. Nəticədə baş verən ağır qəzada 9 nəfər dünyasını dəyişir. Hadisənin günahkarının 23 BX 232 dövlət nömrə nişanlı "Mitsubishi Pajero" markalı minik maşınını idarə edən Əsgərov Bəxtiyar Firudin oğlu olduğu iddia edilir.

Sürücü özü ağır bədən xəsarətləri ilə Göyçay Mərkəzi Rayon Xəstəxanasının reanimasiya şöbəsinə yerləşdirilib.

Amma onun həyat yoldaşı, 1965-ci il təvəllüdlü Əsgərova Nahidə Seyfəddin qızı, atası 1936-cı il təvəllüdlü Əsgərov Firudin Ələkbər oğlu, anası 1938-ci il təvəllüdlü Əsgərova Lumu Kərim qızı aldığı ağır bədən xəsarətləri səbəbindən dünyasını dəyişib.

Toy karvanındakı "Mersedes" markalı minik avtomobilinin sürücüsü - Ağsu şəhər sakini, 1962-ci il təvəllüdlü Məmmədov Davud Məmməd oğlu, sərnişinlər - Ağsu sakinləri, 1963-cü il təvəllüdlü Məmmədova Jalə Qubadəli qızı, 2014-cü il təvəllüdlü Bədəlova Mələk Rauf qızı, 1985-ci il təvəllüdlü Məhərrəmli Günel Veyis qızı, 2008-ci il təvəllüdlü Məhərrəmov Ramiz Rüstəm oğlu, 1990-cı il təvəllüdlü Bədəlova Gülay Davud qızı da aldıqları ağır bədən xəsarətləri səbəbindən hadisə yerində dünyasını dəyişir. Beləcə, sürətlə gələn avtomobil öz ailəsini də tələf edir, xeyir işə gedən toy karvanında olanları da.

**Bizi həyətində qarşılayan Ü.Xankişiyevanın babası Xankişi Xankişiyev baş verənlərin daha aydın təfərrüatını danışdı. Onun sözlərinə görə, toy karvanı ilə toqquşan maşın çox yüksək sürətlə gəlirmiş:** "Sürət həddini aşmağın axırı budur. Özünün də, başqalarının da həyatını məhv etdi. Mənim oğlum 15 ildir maşın sürür. Onu saatda 70-dən yuxarı qalxmağa qoymamışam. Bax, axırı da belə. Gül kimi cavan ailə tələf oldu".

**Xankişi dayı danışır ki, qonaqların gəlişi üçün hazırlıqlar görüblər:** "Hər şey bir anın içində oldu. Biz evdə hazırlıq görürdük. Hardasa saat günorta 2-nin yarısı olardı. Evə zəng gəldi ki, bədbəxt hadisə olub, qəzaya düşüb ölüblər. Rayonun girişində - "Xoş gəlmisiniz" yazılan yerdə toqquşublar. Bircə ona şükür edirik ki, bəyin özü və ailəsinə heç nə olmayıb.

Ancaq nəvəmin nişanlısı Şəhriyarın qardaşı Raufun ailə üzvləri sağ çıxmadı, körpə balası da getdi. Gül kimi cavan ailə idilər. Özü də nənəsi Raufun qızına deyib ki, gəl bizim maşında otur. Yəni bəy öz maşınında olub, anası da yanında.

Uşaq o maşında otursaydı sağ qalardı. Bizə bu xəbər gələn kimi məclis dağıldı, nə günə düşdük bir Allah şahiddir. Hamımız qaçdıq hadisə yerinə. Gördük ki, maşınlar elə vəziyyətə düşüb, burdan sağ çıxmaq möcüzədir. O sürətlə gələn maşın təsəvvür edin ki, necə toqquşub".

**X.Xankişiyev bunu Allahın əcəli hesab edir:** "Bəyin qardaşının qayınatası, qayınanası da ölüb. Bir ailədən 4 nəfər getdi. Elə neçə gündür ki, Ağsuya gedirik, yas məclisində olmuşuq.

Bircə ona şükür edirəm ki, Şəhriyara heç nə olmayıb. Ülkər hadisə günündən bu yana özünə gəlməyib. Yazıq qız evdə üç gün xəstəhal yatdı. Biz deyirdik ki, Məhərrəmliyə az qalıb, gəlib bir nişan kimi məclis edək. Ondan sonra yanvarda toy edəcəkdik. Başımıza belə qəzavü-qədər gəldi. Hardan o bəla bunların qabağına çıxdı, bilmirəm. Əcəl imiş, gəlib bunları tapdı. İndi toy qaldı il mərasimindən sonraya. Bu vəziyyətdə nə etmək olar? Bədbəxt bir işdir".







**Zərərçəkən müsahibimiz deyir ki, sürət həddini heç kəs aşmasa yol qəzası baş verməz:** "Televiziyalar da gəlib çəkdilər, indi siz də yazırsınız. Bizim səsimizi, sözümüzü eşidən, oxuyan varsa onlara deyirəm - bizim başımıza gələn bu bədbəxt hadisəni gözlərinizin qabağına gətirin, dərs olsun. Hamı üçün ibrət olsun ki, maşınla oynamaq olmaz, sürəti aşmaq adamın ömrünü azaldır. Əsas da cavanlara səslənirəm ki, asta sürün, kiməsə özünü göstərməklə qəhrəmanlıq olmur, axırda həyatın bahasına başa gəlir. Bax, indi o adam bu sürətlə gəlməsəydi, qəza olmazdı, gül kimi məclisimizi keçirərdik, o qonaqlar da Şəhriyarın toyunu görərdilər".

Xankişi dayının məsləhətini dinləyib, ayrılırıq. Amma ölkədə qəzalar hər gün baş verməkdədir. Ümumiyyətlə, son illər ölkəmizdə yol qəzalarının sayında xeyli artım müşahidə edilir. 2014-cü ilin 6 ayı ərzində respublikanın avtomobil yollarında 1216 yol-nəqliyyat hadisəsi qeydə alınıb.

Hadisələr nəticəsində 512 nəfər həlak olub, 1234 nəfər isə müxtəlif dərəcəli bədən xəsarəti alıb. Beləcə, 9 milyon əhalisi olan ölkədə yarım ildə 512 nəfər qəzanın qurbanı olub. Bu dəhşətli statistika isə artmaqdadır.

Ümumilikdə 1988-ci ildən 2013-cü ilədək (25 il ərzində) Azərbaycanın avtomobil yollarında 66 min 981 yol qəza hadisəsi qeydə alınıb. Nəticədə 23 min 409 nəfər ölüb, 74 min 878 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

**"Yeni Müsavat"ın Reportyor Qrupu**
**Göyçay, Şahsoltanlı**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 247 (5956) 4 oktyabr 2014



# Prezidentlərin Paris görüşü sual altında

## Görüş xətrinə görüş praktikasından imtina zamanı çatır; səmərəsiz "qaloçka" siyasəti "Qarabağ yükü"nü yerindən tərpətmək gücündə deyil; rəsmi Bakı, nəhayət, bu yöndə ilkə imza atacaqmı?..

**Dağlıq Qarabağ məsələsində qlobal güclərin ikili yanaşması problemin dinc nizamlanması yolunda əsas maneələrdən olaraq qalır. Halbuki mötəbər beynəlxalq təşkilatların hamısı konfliktlə bağlı kifayət qədər obyektiv, ədalətli və Azərbaycanın ərazi bütövlüyünü müdafiə edən qətnamələr qəbul ediblər.**
**Ancaq onların heç biri praktikaya yönəldilməyib. Çünki həmin sənədlərin həyata keçməsi üçün həm də böyük dövlətlərin siyasi iradəsi lazımdır. O da indiyədək özünü göstərməyib - nə Qərb, nə də Rusiya timsalında. Səbəblər qlobal güclərin Güney Qafqazda toqquşan maraqlarından tutmuş, erməni xristian təəssübkeşliyinədək - ən müxtəlif hesab edilir.**

Qarabağ məsələsində ikili yanaşmanın ən bariz təzahürü isə konfliktin nizamlama formulu kimi ölkələrin ərazi bütövlüyü ilə yanaşı, həm də xalqların öz müqəddəratını təyinetmə prinsipini də Azərbaycana qəbul etdirmək cəhdləridir. Halbuki postsovet məkanındakı digər etnik-ərazi konfliktlərinin heç birinin həllində sonuncu prinsip ortaya atılmayıb.

**Azərbaycan prezidenti İlham Əliyev IV Bakı Beynəlxalq Humanitar Forumunun açılış mərasimində çıxışı zamanı bu məsələyə - ikili standartlar məsələsinə bir daha diqqət yönəldib. Beynəlxalq təşkilatları, ələlxüsus BMT-ni Dağlıq Qarabağ ixtilafına münasibətdə ikili standart yanaşmada suçlayıb.**

"Azərbaycanın ərazi bütövlüyü pozulub, bizə qarşı işğalçı siyasət aparılır. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazisi Ermənistanın işğalı altındadır. Bu işğal nəticəsində torpaqlarımızın 20 faizi ermənilər tərəfindən zəbt edilib. Bir milyondan artıq soydaşlarımız məcburi köçkün vəziyyətinə düşüb. Bizə qarşı etnik təmizləmə siyasəti aparılıb. Xocalı soyqırımı törədilib ki, yüzlərlə günahsız insan o soyqırımın qurbanı olub. Xocalı soyqırımını soyqırım kimi 10-dan çox ölkə rəsmi şəkildə tanıyıb" - öncə qeyd edib prezident.

**Dövlət başçısı növbəti dəfə Qarabağ münaqişəsi ilə bağlı mötəbər beynəlxalq təşkilatların qərar və qətnamələrini xatırladıb:** "BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib ki, orada erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması tələb edilir. Əfsuslar olsun ki, bu qətnamələr icra edilmir. Burada biz böyük ədalətsizliklə, ikili standartlarla üzləşirik. Çünki biz yaxşı bilirik ki, bəzi hallarda BMT Təhlükəsizlik Şurasının qətnamələri bir gün ərzində icra edilir. Ancaq bizim üçün ən vacib məsələdə 20 ildən artıqdır ki, bu qətnamələr kağız üzərində qalıb. ATƏT, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası və digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qərar və qətnamələr qəbul ediblər".

**Prezidentin sözlərinə görə, bu format və hüquqi baza münaqişənin həlli üçün yeganə yoldur:** "Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır və qeyd-şərtsiz bərpa edilməlidir. İşğaldan əziyyət çəkən, öz yerindən didərgin olan soydaşlarımız öz doğma torpaqlarına qayıtmalıdırlar. Baxmayaraq ki, o torpaqlarda artıq həyat yoxdur. Hər şey dağıdılıb".

**İ.Əliyev onu da bildirib ki, ATƏT-in faktaraşdırıcı və qiymətləndirmə missiyaları iki dəfə işğal edilmiş torpaqlara ezam olunub:** "Onların məruzələrində açıq-aydın göstərilir ki, hər şey - bizim məscidlərimiz, əcdadlarımızın qəbirləri, tarixi abidələr dağıdılıb, muzeylər talan edilib. Bu böyük humanitar fəlakət idi. Azərbaycan təkbaşına öz gücü hesabına bu humanitar məsələnin həlli üçün, köçkünlərin yerləşdirilməsi üçün, onları işlə təmin etmək üçün böyük işlər görüb. Hələ ki bu işlər davam edir, çünki köçkünlərin bir hissəsi hələ ki ağır vəziyyətdə yaşayırlar. Qarabağ münaqişəsi bölgə üçün ən böyük təhlükədir. Bu münaqişənin tezliklə beynəlxalq hüquq və norma prinsipləri əsasında həll olunması bölgəyə sülh, daha da böyük inkişaf gətirəcək, regional əməkdaşlıq üçün də yeni imkanlar yaradacaq".



****

Əslində qlobal güclərin konfliktin həllində yetərli və praktik səylər göstərmədiyi, Qarabağ məsələsinə ikili standart yanaşması öz aktuallığını saxladığı vaxtda prezidentlərin birbaşa görüşünün anlamı qalmır. Sayı-hesabı itmiş belə görüşlərdən növbəti birisi oktyabrın 27-də Parisdə baş tutmalıdır. Ancaq hələ ki Bakı buna rəsmi razılığını verməyib. İkinci yandan, razılıq verməyə dəyərmi əgər Ermənistanın mövqeyində Krımın işğalından sonra da yumşalma müşahidə edilmirsə, tam əksinə daha sərt ritorika və özündən razılıq müşahidə edilirsə?!

Artıq şübhə yox ki, Paris görüşü də "qaloçka" siyasətinə xidmət edəcək və "Qarabağ yükü"nü yerindən tərpətmək gücündə olmayacaq. Bunun əksini iddia eləmək üçün hazırda heç bir zəmin, şərt gözə dəymir. Üstəlik, əksər ekspertlər əmindirlər ki, Paris görüşü, sadəcə olaraq, Rusiyanın Qarabağ təşəbbüskarlığını neytrallaşdırmaq zərurətindən ortaya çıxıb - nə az, nə çox.

O üzdən Azərbaycan tərəfinin ilk dəfə olaraq belə görüşdən imtinası problemin ədalətli həllinin vacibliyinə vasitəçi dövlətlərin diqqətini yönəldər, sözdən işə keçməyin zamanı çatması barədə orijinal xəbərdarlıq mesajı olardı. Yoxsa Qarabağla bağlı söz oyunu hələ çox zaman aparacaq.

Bu qənaətə işləyən ən ciddi amillərdən biri də Minsk Qrupuna həmsədr olan güclərin - Rusiya və Qərbin təzə-təzə yeni "soyuq müharibə" mərhələsinə girməsidir. Əgər bu iki tərəf arasında az-çox anlaşmanın olduğu başqa zamanlarda prezidentlər səviyyəsində heç bir sanballı sənəd qəbul edilməyibsə, anlaşma əldə olunmayıbsa, Qərb-Rusiya münasibətlərinin böhranlı durumda olduğu hazırkı dövrdə, ümumiyyətlə, irreal görünür. Unutmayaq ki, Ermənistan müstəqil dövlət deyil və onun əli ilə Moskva özünə sərf eləməyən istənilən "kənar anlaşmanı" sıfırlaya bilər.

# Sarkisyan təlaş içində

## Ermənistan rəhbərliyi qəfil daxili təlatümlərdən ehtiyatlanır; oktyabrın 10-na ümumrespublika mitinqi təyin edilib...




**Düşmən ölkədə daxili ictimai-siyasi narazılıqlar gündən- günə böyüyür. Rusiyaya qarşı beynəlxalq sanksiyaların küləyi təbii ki, onun Güney Qafqazdakı əsas forpostunu da vurur və bu da ilk növbədə erməni əhalisinin güzəranında, ovqatında özünü büruzə verməkdədir. Bu fonda isə hakim rejimdən narazılıq böyüməkdədir. Narazılığa qarşı hökumətin əsas kontur-tədbiri də ki, ənənəvi olaraq polis zorakılığında özünü göstərməkdədir.**

"Ermənistan polisi etiraz mitinqlərinin potensial iştirakçısı saydığı insanları şöbəyə dəvət edir. Yerli hüquq-mühafizə peysərləri şöbəyə gələnlərə etiraz aksiyalarına yaxın getməməyi tövsiyə edirlər, deyirlər ki, orada başınıza hər cür iş gələ bilər. Polisdən deyirlər ki, əsas məsələ ağıllı olmaqdır və heç bir hay-küyə qoşulmamaqdır".

Erməni mətbuatının yazdığına görə, bu barədə Ermənistan parlamentinin deputatı Tiqran Urixanyan tərəfindən respublika ombudsmanına göndərilmiş məktubda deyilir (anspress). "İstərdik ki, dərhal vətəndaşları polisdəki bu cür "profilaktik" söhbətlərdən qoruyasınız", - deyə məktubda vurğulanır.

Deputat həmçinin ölkə hakimiyyətini günahlandırıb və bildirib ki, başda oturanlar etiraz aksiyasına gələnləri işdən çıxarmaqla hədələyirlər. Qeyd edib ki, iqtidardakılar insanları hətta ağır zəhmətlə əldə etdiyi qəpik-quruşdan məhrum etmək istəyir.

Yada salaq ki, təxminən bir ay qabaq Ermənistan polisinin başçısı da müxalifətin və mitinq keçirənlərin ünvanına hədələr səsləndirmişdi. O, aşağıdakı sözləri demişdi: "Sizin qızmar payızınıza mənim buzlu duşum var. Əgər bu kömək eləməsə, mən sizə daha qızmar payız təşkil edəcəyəm".

Polis məmurunun bu cür bəyanatı Ermənistanda həyəcan dalğasına səbəb oldu. Oktyabrın 10-da Ermənistanın 4 parlament partiyası ümumrespublika etiraz mitinqi keçirməyi qərara alıb. Onların tələblərindən biri ölkə rəhbərliyinin istefasıdır. Aydındır ki, hakimiyyətdə olanlar gözlənilən hadisələrdən çox qorxublar. Ona görə də "demokratik" Ermənistan da ən sərt tədbirlərə əl atır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 247 (5956) 4 oktyabr 2014



# Həsən Həsənov bu gün dəfn ediləcək

## “Ümid edirik ki, o sağdır və bu cənazə onun deyil”

**“Həsən Həsənovun meyiti tanınmaz haldadır. Hazırda 1 saylı Klinik Tibbi Mərkəzdə ekspertiza gedir. Ailəsi çox ümidlidir ki, o sağdır və bu cənazə onun deyil”. Bu sözləri musavat.com-a açıqlamasında girovluqda öldürülən məhrum Həsən Həsənovun qardaşı Nail Həsənov deyib.**

Onun sözlərinə görə, meyitin həqiqətən Həsən Həsənova məxsus olduğu aydınlaşandan sonra ailəsinə təhvil veriləcək: “Cənazə bizə veriləndən sonra meyitin yuyulması üçün Göy məscidə aparacağıq. Binəqədi qəbiristanlığında yer götürmüşük, orada dəfn olunacaq. Ancaq hələ də ümidimiz var ki, bu cənazə onun deyil”.

Nail Həsənovun sözlərinə görə, meyitin kimliyi təsdiqləndikdən sonra ailəsinə təhvil veriləcək və bu gün dəfn olunacaq.

N. Həsənov aidiyyəti dövlət qurumlarının rəhbərlik səviyyəsində onlarla əlaqə saxladığını və hər bir məsələdə dəstək olduqlarını bildirdi: “Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən, Binəqədi Rayon İcra Hakimiyyətindən, Cəbrayıl bölgəsindən olan deputat Astan Şahverdiyev iki gündür ki, vaxtaşırı bizimlə əlaqə saxlayırlar, nə kömək lazımdırsa edirlər, diqqətsiz qoymurlar. Aslan müəllim iki gündür ki, bizimlə bir yerdədir, əllərindən gələn köməyi edirlər”.

**Həsən Həsənova şəhid adının verilməsinə gəlincə, N. Həsənov bildirdi ki, bu məsələ şəxsən prezidentin nəzarətində olduğu üçün çox güman ki, şəhid adı verilə bilər. Ancaq bunun siyasi məqamlarını da nəzərə almaq lazımdır:** “Ancaq Həsən Həsənova qəhrəman və ya şəhid adı verməklə əsirlikdə olan Dilqəmin, Şahbazın vəziyyətini çətinləşdirə bilərlər”.

Qardaşı deyir ki, Həsən Həsənovun ailəsi çox nigarandır, dua edirlər ki, ekspertizanın rəyi mənfi olsun və Həsən Həsənovun yaşadığına ümid etsinlər: “Qardaşımın iki qızı var, biri beşinci, digəri birinci sinifdə oxuyur”.

**Əsir və Girovlarla iş üzrə Dövlət Komissiyası İşçi qrupu rəhbərinin müavini Eldar Səmədov “Yeni Müsavat”a açıqlamasında bildirdi ki, onların missiyası artıq başa çatıb:** “Meyit Bakıya gətirildi və ailəsinə təhvil verildi. Hazırda ekspertizada kimliyi müəyyənləşdirilir. İşçi qrupun missiyası artıq başa çatıb. Mərhumun dəfni və digər məsələlər aidiyyəti qurumların nəzarətindədir”.

Xatırladaq ki, əslən Cəbrayıl rayonundan olan Həsən Həsənov bu ilin iyulunda işğal altındakı Kəlbəcər rayonunda girov götürülərək öldürülmüşdü. Onunla birlikdə Kəlbəcərə getmiş Dilqəm Əsgərov və Şahbaz Quliyev isə hələ də erməni girovluğundadır.

❑ **Nərgiz LİFTİYEVA**



# “Azərbaycan hakimiyyəti Qərblə konfrantasiyaya gedir”

## Avropa Şurasındakı müzakirələr rəsmi Bakı üçün nə vəd edir; **Mehman Əliyev:** “Mən heç vaxt Azərbaycan hakimiyyətini öz qərarlarını verməkdə tam müstəqil saymamışam”



Mehman Əliyev

**AŞ PA-nın payız sessiyasının son iş günündə qurumun Bürosunun toplantısı keçirilib. İclasda Dağlıq Qarabağ üzrə təyin edilmiş məruzəçinin gələcək fəaliyyəti barədə müzakirə aparılıb. APA-nın xəbərinə görə, iclasda iştirak edən Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov deyib ki, büro üzvlərinin bir çoxu Ermənistan nümayəndə heyətinin sessiyadakı davranışından narazılığını ifadə edib: “AŞ PA bürosu qərara aldı ki, Ermənistan nümayəndə heyəti ilə əlaqə saxlanılsın və belə bir məsələlərin assambleyanın qaydalarına uyğun olmaması onların nəzərinə çatdırılsın. Ermənistan tərəfi öz mövqeyində israrlı olacaqsa, AŞ PA həmin nümayəndə heyətinə qarşı lazım olan addımları atmaq hüququnu özündə saxlayır”.**

Məruzəçi Robert Valterin məruzə hazırlaması və gələcəkdə regiona səfər edib-etməyəcəyi barədə sualı cavablandıran S. Seyidov, bu məsələyə AŞ PA Siyasi məsələlər üzrə komitəsinin növbəti iclasında baxıla biləcəyini söyləyib: “Bu məsələ artıq büronun işi deyil, bu məsələ Siyasi məsələlər üzrə komitənin gündəliyində olacaq və növbəti iclası keçiriləndə artıq Robert Valterin səfəri, iş prinsipləri, əlaqələri müzakirə ediləcək. Ermənistanın məruzəçi ilə işləyib-işləməməsi ilə bağlı məsələ bir də gündəmə gələcək və onlar özlərinin "yox" cavabını təkrarlayarsa, bu, açıq şəkildə Avropa Şurasına meydan oxumaq mənasına gələcək. Bu halda qurum təbii ki, hansısa addımlar atmaq məcburiyyətində qalacaq. Hansı addımlar olacaq, bunları biz müzakirə edəcəyik. Hər bir halda bu məsələyə yanvar sessiyasında bir daha qayıdılacaq".

Qeyd edək ki, Azərbaycan Avropa Parlamentinin sərt qətnaməsinin və ABŞ prezidentinin açıq tənqidinin ardınca Avropa Şurasında da çətin situasiya ilə üzləşib. Oktyabrın 2-də bir qrup Azərbaycanlı siyasi mühacir Strasburqda AŞ PA-nın plenar iclasında Azərbaycan XİN rəhbəri Elmar Məmmədyarovun çıxışı zamanı aksiya keçirib. Fəallar zalın lojasında “Azərbaycan siyasi məhbuslarına azadlıq!” şüarı səsləndiriblər. AŞ PA rəhbəri Ann Brösser etirazçılardan sakitliyə riayət etməyi xahiş etdikdən sonra aksiya səssiz formada davam edib: üzərində siyasi məhbusların şəkilləri olan qırmızı köynək geyinmiş siyasi mühacirlər əllərini qaldırıblar. Brösser özü Məmmədyarova söz verməzdən əvvəl ölkədə baş verən proseslər haqqında izahat dinləmək istədiyini bildirib. Bu zaman o, fəalların narahatlıq doğuran həbsini nəzərdə tutduğunu qeyd edib. Brösser deyib ki, ötən həftə Azərbaycanda olub və bəzi məhbuslarla görüşüb. O qeyd edib ki, Azərbaycanda AŞ standartlarına riayət olunması ilə bağlı, xüsusən müstəqil məhkəmə, toplaşmaq, ifadə azadlığının təmin edilməsi sahəsində ciddi problemlər var və bu problemlər tezliklə həll edilməlidir.

Nazirlər Komitəsinə sədrlik təkcə məsuliyyət deyil, həm də Avropa Şurası qarşısında öhdəliklərə sadiqliyin nümayişi üçün yaxşı imkandır. Azərbaycanın sədrliyinin başa çatmasına vaxt var və Bakı sözügedən sahələrdə addımlar atmalıdır. Lakin Məmmədyarov öz çıxışında bütün bu məsələlərə toxunmayıb və daha çox ümumi mövzularda danışaraq, Azərbaycanın sədrliyi dövründə AŞ-nin fəaliyyətindən bəhs edib. Ukraynadakı hadisələr haqqında danışarkən o, bir dəfə də olsun Rusiyanın adını çəkməyib.

AŞ PA-nın payız sessiyası çərçivəsində qurumun Siyasi İşlər və Demokratiya Komitəsinin toplantısı da keçirilib. Komitənin toplantısında “Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərində gərginliyin artması” adlı hesabatın hazırlanması ətrafında müzakirələr aparılıb və bu məsələ üzrə Böyük Britaniyadan olan parlamentar Robert Valter məruzəçi təyin edilib.

Qeyd edək ki, “Azərbaycanın Dağlıq Qarabağ və digər işğal edilmiş ərazilərində gərginliyin artması” adlı məruzənin hazırlanması haqqında qərar AŞ PA-nın payız sessiyasının bu həftənin birinci günü keçirilmiş plenar iclasında qəbul olunmuşdu və bu tapşırıq aidiyyəti üzrə Siyasi Məsələlər Komitəsinə göndərilmişdi. Ermənistanın AŞ PA-dakı nümayəndə heyətinin üzvləri və onları dəstəkləyən digər deputatlar bu təklifə qarşı çıxaraq, məsələnin qurumun Monitorinq Komitəsinə ötürülməsini istəsələr də, plenar iclasdakı səsvermələrdə assambleya iştirakçıları onların bu tələbini qəbul etməyiblər.

Azərbaycan hökuməti adətən Avropanın azadlıqlarla bağlı tələblərinin qarşısında işğal altındakı ərazilər məsələsini arqument kimi qoyur. Güman olunur ki, Avropa Şurası bu amili nəzərə alıb işğal altındakı ərazilərlə bağlı məruzəçini təyin edib. Ancaq Avropanın bu ərəfədə, özü də Rusiyanın təzyiqləri fonunda Azərbaycanı sıxması, onu küncə sıxması suallar doğurur.

**“Turan” agentliyinin direktoru Mehman Əliyev deyir ki, Azərbaycana artan təzyiqlərin əsas səbəbi Azərbaycanda baş verənlərin iqtidar deyən kimi, təkcə daxili məsələ olmamasıdır:** “Baxmayaraq ki, bizim iqtidar baş verənləri Azərbaycanın daxili işi adlandırmağı, ölkənin suveren dövlət olduğunu deməyi sevir. Avropa Birliyi və Qərb Azərbaycandan dəfələrlə götürülmüş öhdəliklərin yerinə yetirilməsini gözləyir. Bununla bağlı indiyədək kifayət qədər güzəştlərə gedilib, ölkəyə imkanlar yaradıblar. Sadəcə olaraq, Azərbaycan son vaxtlar regiondakı münaqişələrdən istifadə edib daha çox cəmiyyətin üstünə hücum edir. Ukrayna hadisələri, Suriyada baş verənlər, Rusiyanın təpkilərindən istifadə edərək Azərbaycan hakimiyyəti öz işini görməyə çalışır. Hesab edirlər ki, indi Qərbin diqqəti daha çox Rusiyaya, Orta Şərqə yönəlib. Məncə, Qərb də bunu başa düşür, qeyd edir ki, biz bunları görürük və göz yuman deyilik”. **Azərbaycanın məhz Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi dövründə təzyiqlərin artan dinamika ilə getməsinə gəldikdə, M.Əliyev bu məsələdə Qərbi də tənqid etdi:** “Qərbin də burda səhvini görürəm və bu tipli yanaşmaların əleyhinə çıxıram. Çünki bir çox hallarda qeyd ediblər ki, Azərbaycanın xüsusi missiyanı yerinə yetirdiyi ərəfədə ondan cavab addımları və xoş münasibət gözləyirlər. Sanki sədrlik etməsə, Azərbaycan istədiyini edə, insan hüquqlarını poza bilər. Azərbaycan hakimiyyəti də görür ki, bu, yumşaq formada müəyyən qədər şantaj, müəyyən mənada yaltaqlanmaqdır. Ona görə də bunlara cavab verir ki, biz belə halları qəbul etmirik. Ancaq fakt budur ki, Azərbaycan hakimiyyəti Qərblə konfrantasiyaya gedir”. **Bu gərginliyin nə qədər davam edəcəyi barədə də ekspertin öz yanaşması var:** “O qədər gedəcək ki, Qərb, ilk növbədə ABŞ buna imkan yaradacaq. Mən heç vaxt Azərbaycan hakimiyyətini öz qərarlarını verməkdə tam müstəqil saymamışam. Çünki Azərbaycan beynəlxalq birliklərin, öhdəliklərin, sazişlərin üzvüdür. Hələ biz görünməyən danışıqlardan bəhs etmirik. Biz 1994-cü ildə nefti, qaz kəmərlərini, yataqlarını ABŞ kompaniyalarına verəndə bununla da onlardan Azərbaycanın təhlükəsizliyinin, ərazi bütövlüyünün qorunmasının qarantiyalarını aldıq, bu, elə-belə baş verməyib. Bu gün də onlar qarant rolunda çıxış edirlər. Mən ABŞ tərəfinə də demişəm ki, mən bilirəm siz bu proseslərin içindəsiniz və istəsəniz çox şeyləri dəyişə bilərsiniz. Nəyə görə istəmirsiniz, bu, başqa məsələdir. Ancaq fakt odur ki, Azərbaycan tərəfi bu məsələdə müstəqil deyil, ABŞ istəsə, prosesləri dayandıra, lazımi istiqamətə yönəldə bilər”.

❑ **Cavid TURAN**



# Aİ Ukraynada atəşkəsin pozulması ilə bağlı bəyanat yayıb

**Avropa İttifaqının (Aİ) Xarici Fəaliyyət Xidməti Şərqi Ukraynada atəşkəsin pozulması ilə bağlı bəyanat yayıb. ANS PRESS-in məlumatına görə, bəyanatda deyilir:**

“Biz atəşkəsə rəğmən Şərqi Ukraynada atışmaların intensivləşməsindən narahatıq. Atışmalar dünən Donetskdə məktəb yaxınlığında bir neçə mülki vətəndaşın ölümünə səbəb olub. Ötən həftələrdə, xüsusən Donetsk hava limanı yaxınlığında vuruşmalar nəticəsində bir çox ukraynalı hərbçi öldürülüb. Ölənlərin ailələrinə başsağlığı verir, bu il sentyabrın 5-də imzalanan atəşkəsin tələblərinə ciddi əməl olunmasını və sentyabrın 19-da qəbul olunan işçi memorandumunu bir daha xatırladırıq. İnsan hüquqlarının pozulmasının qarşısının alınması və bu cür halların araşdırılması baxımından, Şərqi Ukraynada qayda-qanunun bərpası üçün atəşkəsin qorunub saxlanması vacibdir”.

**Bəyanatın sonunda bildirilir:** “Biz Ukraynanın suverenliyi və ərazi bütövlüyünə hörmət əsasında dayanıqlı siyasi həllə nail olmaq üçün davamlı atəşkəsin vacibliyini xatırladırıq. Aİ bu istiqamətdə bütün addımları dəstəkləməyə hazırdır”.

## Müsavatdan bayram təbriki

***Müsavat Partiyasının başqanı Arif Hacılı Azərbaycan xalqını Müqəddəs Qurban bayramı münasibətilə təbrik edib. Təbrikdə deyilir:***

***“Əziz həmvətənlər!***

***Azərbaycan xalqını müqəddəs Qurban bayramı münasibətilə təbrik edir, hər bir Azərbaycan ailəsinə bol bayram süfrəsi arzulayıram.***

***Bu bayram xalqımız, eləcə də bütün dünya müsəlmanları üçün olduqca əzizdir. İslamın ən müqəddəs bayramlarından biri olan Qurban bayramı insanları haqqa-ədalətə, ulu Tanrıya daha da yaxınlaşdırır və onları saflaşdırır. Müqəddəs Həcc ziyarətinin də məhz bu günlərdə həyata keçirilməsi Qurban bayramının əhəmiyyətinin və dəyərinin göstəricisidir.***

***Mən arzu edirəm ki, belə bir müqəddəs gündə edilən qurbanlar, oxunan dualar Haqqın dərgahında qəbul olunacaq, hər birimizin xoş niyyətinin həyata keçməsinə kömək göstərəcək. Belə bir əziz gündə dualarımızın bütövlükdə xalqımız üçün düşərli, ölkəmizin və millətimizin problemlərinin həllinə yardımçı olacağına inanıram.***

***Əziz həmvətənlər!***

***Hamınızı və hər birimizi təbrik edir və Tanrıdan Sizə xoşbəxtlik, əmin-amanlıq arzulayıram.***

***Tanrı Azərbaycanımızı qorusun!"***

# Avropada yaşayan ülküçülərdən Azərbaycana qurban payı

## Almaniya Demokratik Ülküçü Türk Dərnəkləri Federasiyasının başqan yardımçısı və qurumun Fransa təmsilçisi “Yeni Müsavat”ı ziyarət etdilər

**Almaniya Demokratik Ülküçü Türk Dərnəkləri Federasiyasının başqan yardımçısı Nihat Güney və qurumun Fransa təmsilçisi Abdulqadir Çakır Azərbaycanda səfərdədir.**

“Yeni Müsavat”ın redaksiyasına təşrif buyuran dəyərli qonaqları sabiq baş nazir Pənah Hüseyn, qəzetimizin baş direktoru Ələsgər Süleymanov və bu sətirlərin müəllifi qarşıladı. Qonaqlar Avropadakı soydaşlarımızın, həmçinin federasiya təmsilçilərinin “Yeni Müsavat” ailəsinə salamlarını, müqəddəs Qurban bayramı münasibətilə təbriklərini çatdırdılar. Ə.Süleymanov də öz növbəsində təşəkkürünü bildirərək ölkədə olmadığı üçün görüşə qatıla bilməyən baş redaktorumuz Rauf Arifoğlunun da qonaqlara salamlarını çatdırdı.

Qeyd edək ki, Almaniya Türk Federasiyası və Avropa Türk Konfederasiyası 10 ildən çoxdur ki, hər il Qurban bayramı günlərində bayram sevincini paylaşmaq üçün Azərbaycana xüsusi bir heyət göndərir. N.Güney bildirdi ki, federasiya ənənəsinə sadiq qalaraq budəfəki Qurban bayramında da Azərbaycandakı bacı və qardaşları üçün qurbanlar kəsmək, bayramlaşmaq üçün təşəbbüs göstərib.

**Abdulqadir Çakır Fransada ermənilərin 2015 hazırlıqlarına qarşı çıxışları barədə danışdı. O bildirdi ki, ermənilər saxta soyqırımın 100 illiyi ilə bağlı Fransanın müxtəlif yerlərində 15 abidə qoymaq istəyir:** “Biz buna qəti etiraz etdik, müxtəlif qurumlara etiraz məktubu göndərdik. Bu addımın ciddi problemlərə səbəb olacağını bəyan etdik. Bələdiyyə təmsilçiləri ”geri addım atılacağına əmin ola bilərsiniz" dedilər və “Fransa üçün ölən ermənilərə” abidə qoyulmasını dayandırdılar. Baxaq, görək qarşıda nə olacaq".

**N.Güney Avropada 4,5 milyon türkün yaşadığını, bunların böyük hissəsinin Almaniyada yaşadığını xatırlatdı. Bildirdi ki, soydaşlarımızın təşkilatlanmasında rəhmətlik Başbuğ Alparslan Türkeşin tövsiyəsi əsas olub. N.Güney Avropa Türk Federasiyasının başqanı Camal Çətinin də özəl salamlarını çatdırdı.**

**Qeyd etdi ki, Federasiya Türkiyə xaricində ülküçü hərəkatın yeganə təmsilçisidir:** “Türklərin sıx yaşadığı ölkələrdə federasiyanın bayrağı altında təşkilatlar fəaliyyət göstərir. Avropada apardığımız işlərdə ən böyük məqsədlərimizdən biri türk insanının öz kimliyini itirmədən varlığını saxlamasıdır. İkinci məqsədimiz daha yetkin, savadlı insanlarımızı üzə çıxarıb onları təqdim etməkdir. Eyni zamanda biz mədəni, sosial, dini fəaliyyətimizi də gücləndiririk. Avropadakı insanlarımızın türk mədəniyyətini unutmaması üçün çalışırıq”.

**P.Hüseyn qeyd etdi ki, bu gün Bakıda yaşayan hər kəs vaxtilə paytaxtımızı azad edən şərəfli türk əsgərinə borcludur:** “90-cı illərdə də türk əsgəri növbəti dəfə Azərbaycanın yanında oldu, biz bunları unutmamışıq. Ona görə də Azərbaycan həm də sizin vətəninizdir”.

Xatırladaq ki, Almaniya Türk Fedarasiyaları və Türk Konfederasiyası Türkiyədəki Milliyyətçi Hərəkat Partiyasına yaxındır və məhz onu dəstəkləyir. Azərbaycanda isə heç kəsə fərq qoymadan fəaliyyət göstərməyə çalışırlar. Avropalı qonaqlar Bakıda Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin rəhbəri Novella Cəfəroğlu, KXCP sədri Mirmahmud Mirəlioğlu və Azəri Türk Qadınlar Birliyinin sədri Tənzilə Rüstəmxanlı ilə də görüşəcək.

Almaniya Demokratik Ülküçü Türk Dərnəkləri Federasiyası 18 iyun 1978-ci ildə, Almanyada, rəhmətlik Başbuğ Alparslan Türkeşin tövsiyəsi ilə yaradılıb. Əsas məqsəd ölkə xaricində yaşayan türklərin milli və dini kimliyini qorumasına dəstəkçi olmaq, yeni toplumda daha yaxşı şərtlər altında və rahat yaşamalarını təmin etmək, assimilyasiya prosesini əngəlləməkdir. Almaniya Türk Federasiyası və ona bağlı quruluşlar, Almaniyada türklərin hər cür sosial-mədəni-iqtisadi faktorlarla bağlı fəaliyyətlərində iştirak edir və ya onları yönləndirir. Almaniyadan sonra Federasiyalar Avstriya, Belçika, Hollandiya, Fransa, İsveçrə, İngiltərə, İsveç, Norveç ve Danimarkada qurulub. Daha sonra, 29 oktyabr 2007-ci ildə 7 ayrı ölkədə fəaliyyət göstərən Türk Federasiyaları bir araya gələrək Avropa Türk Konfederasiyasını qurub. Konfederasiyanın ən güclü qurucu üzvü isə Almaniya Türk Federasiyasıdır. Avropa Türk Federasiyası bütün federasiyaların üstqurumu sayılır.










**❑ E.PAŞASOY**
**Fotolar: Röya RƏFİYEVA**

# Qurban - Allaha yaxın olmaq bayramı



**Kənan RÖVŞƏNOĞLU**

## Və ya içimizdəki şeytanı daşlaya bilirikmi?

**İslam dinində ən böyük bayram olan Qurban (eyd əl-Adha) günlərini yaşayırıq. Daha çox İsmayıl Qurbanı adlanan bayram özündə böyük bəşəri dəyərləri cəm edib. Qurban ərəbcədə “qurbə”, yəni yaxınlaşma sözündən olub bunu edən insanın əsas qayəsinin məhz Allaha yaxınlaşmaq, Onun razılığına nail olmaq olduğunu bildirir.**

Qurban yalnız ilin bir günündə bir və ya bir neçə heyvanı kəsib paylamaqdan ibarət deyil. Hicrətin ikinci ilindən başlayaraq müsəlmanlar Məhəmməd Peyğəmbərin (s.ə.s) əmri ilə Mədinədə Qurban bayramını qeyd etməyə başlayıblar. Qurban kəsmənin tarixi isə Həzrət İbrahimin (ə) oğlu İsmayılı (ə) Allahdan gələn vəhy əsasında dağa aparıb qurban kəsməsi hekayəsinə dayanır. Bu hekayənin məğzi budur ki, İbrahim (ə) Allahdan aldığı əmri yerinə yetirmək üçün qoca yaşında Allahın ona verdiyi sevimli oğlu İsmayılı qurban kəssin. İbrahim Peyğəmbər isə Allahın əmrini yerinə yetirmək üçün dünyada ən çox sevdiyi oğlundan imtinaya hazır olur. Yalnız son anda Allah onun imtahandan üzüağ çıxdığını və oğlunu deyil, bir qoç qurban kəsməsini əmr edir.

Bu əhvalatın bir neçə məqamı var. İbrahimin bir insan olaraq dünyada ən çox sevdiyi oğlunu Allah yolunda qurban etməyə hazır olması, yəni Allah üçün dünyadan imtina etmək gücü. İnsanların Allah yolunda qurban verilməsi kimi adətlərin böyük günah olduğu və Allah üçün insanı qurban verilməməsi göstərişi. Və nəhayət, yardımlaşma. Qurban bayramı müsəlmanların yardımlaşma, kasıblara, imkansız insanlara əl tutması aksiyasıdır. Qurban kəsən insan böyük bir hissəsini ehtiyaclı insanlara paylamaqla savab, yəni Allahın razılığını qazanmağa çalışır. Hətta hədislərdə var ki, Həzrət Məhəmməd qurban kəsdiyi qoyun ətinin böyük qismini ehtiyaclı insanlara paylanmasını əmr edib. Bunun səbəbini isə belə izah edir ki, “əsl həqiqətdə bizə qalan payladığımız hissədir”. Yəni əgər qurban kəsmək Allaha yaxın olmaq, Onun razılığını qazanmaqdırsa, o zaman hədiyə edilənlərin savabı var, yeyilənlərin deyil.

Ancaq Qurban bayramı yalnız heyvan kəsib ətini paylamaqdan ibarət deyil. İslam bayramı olaraq Qurban günlərində namaz qılmaq, dua oxumaq, xəstələri, qohumları ziyarət etmək, ehtiyaclı insanlara yardım etmək müsəlmanlara buyurulub.

Ancaq təbii ki, Qurban bayramının ən böyük mesajı insanın Allaha yaxın olmaq üçün dünyadan, dünya malından vaz keçməsidir. İbrahim Peyğəmbərin əhvalatı bunun bariz nümunəsidir. Dünyadan üz çevirmə, ən sevdiyin dünya bağını kəsməyə hazır olmaqdır İbrahimin hekayəsi. Sonrakı əsillər bunu ibrət olaraq yaşasınlar deyə Allah-Taala Həcc ziyarəti zamanı müsəlmanların İbrahimin (ə) İsmayılı qurban kəsməyə apararkən getdiyi yolu getmələrini, onun etdiklərini təkrar etmələri əmr edilib. Hər il həcc ziyarətində olan insanlar Minaya, Ərəfat dağına çıxarkən məhz İbrahim Peyğəmbərin etdiklərini təkrar edir, İsmayılı qurban kəsməyə apararkən ona vəsvəsə edən, fikrindən daşındırmaq istəyən şeytanı daşlamasını təkrar edərək 3 dəfə şeytanı daşlayır və Minada qurban kəsir. Bununla da ziyarətini. yəni Allahla əhdini yeniləyərək həcc əməlini, İbrahimin (ə) böyük tövhid əməlini təkrar etmiş olur.

Çox təəssüf ki, builki Həcc və Qurban bayramı çox ağrılı bir zamana təsadüf etdi. Bu gün müsəlman dünyasında baş verənlər İslam dini ilə heç bir əlaqəsi olmayan hadisələrdir. Nifrət, qətllər, qarət, təcavüzlər... Bunlar İslamın ruhu ilə daban-dabana ziddir. Müsəlman dünyası indi İbrahimin imtahanını verir. Bəlkə də daha ağır. Çünki həqiqi İslam dəyərlərinin harada bitdiyi, zorakılıq və terrorun harada başladığını müəyyən edən sərhədlər xeyli dərəcədə qarışıqdır. Müsəlman aləminin bu sınaqdan necə çıxacağı, nəyi bahasına çıxacağı hələ aydın deyil. Amma bir şey aydındır. Hər kəs Məkkəyə getmədən öz içindəki şeytanı daşlamağı bacarmalıdır. Əks halda, Məkkəyə getməyin, din adına bayraq qaldırmağın mənası qalmayacaq.

# "AMAY Abdulla"nın qohumunu öldürənlərin məhkəməsi başladı

**Oktyabrın 3-də Bakı Apelyasiya Məhkəməsində qətl törətməkdə ittiham olunan Seymur və Murad Məmmədov qardaşlarının cinayət işi üzrə məhkəmə prosesi başlayıb. Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, prosesə hakim Qədim Babayev sədrlik edib.**



Xatırladaq ki, ötən il sentyabrın 2-də Keşlə qəsəbəsi, M.Hilal küçəsində naməlum şəxs qəsəbə sakini Elçin Fərəcovun döş qəfəsinə ov tüfəngindən bir dəfə atəş açaraq onu yaralayıb. Elçin Fərəcov xəstəxanaya aparılarkən yolda ölüb.

Hadisənin törədilməsində şübhəli bilinən Bakı şəhər sakini, 1986-cı il təvəllüdlü Məmmədov Seymur Həmzə oğlu Daxili İşlər Nazirliyi Baş Cinayət-Axtarış İdarəsi, Bakı Şəhər Baş Polis İdarəsinin Cinayət-Axtarış İdarəsi, Nizami Rayon Polis İdarəsinin cinayət-axtarış şöbəsi və 23-cü polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində sentyabrın 3-də tutulub. Ondan maddi sübut kimi 1 ədəd 16 kalibrli lüləsi və qundağı kəsilmiş ov tüfəngi götürülüb.

İstintaq zamanı şübhəli şəxs qismində Seymurun qardaşı Murad da həbs edilib.

Məlumatla görə, qətlə yetirilən şəxs "A.M.A.Y." ticarət mərkəzinin rəhbəri Abdulla Abdullayevin yaxın qohumu olub.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Seymur Məmmədov 12 il, Murad Məmmədov 3 il müddətinə azadlıqdan məhrum edilib.

Hökmdən narazı qalan təqsirləndirilən şəxslər apelyasiya şikayəti veriblər. Seymur Məmmədov cəzasının yüngülləşdirilməsini, Murad Məmmədov isə günahsız olduğunu əsas gətirərək barəsində bəraət hökmünün çıxarılmasını istəyib.

Məhkəmə baxışı oktyabrın 10-na təyin olunub.

*Əyləncəli, sürətli, asan!*




*Klassik metodlardan fərqli olaraq,*
*Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- ✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
- ✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
- ✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
- ✓ Əla tələffüz və güvənlə danışmaq
- ✓ Real ingiliscə söhbətlər

BONUS
english EXPLOSION
dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

# Bakıda qadınları hücum edən manyak yaxalandı

**Bakıda qadınlara hücum çəkərək onları qarət edən oğru yaxalanıb. Bakı Şəhər Baş Polis İdarəsindən ANS PRESS-ə verilən məlumata görə, qadınların vahiməsinə çevrilən manyak Binəqədi Rayon Polis İdarəsi və 5-ci polis bölməsinin əməkdaşları tərəfindən saxlanılıb.**

Saxlanılan Zaqatala rayon sakini Əfqan Cunayev bir neçə qadına hücum çəkərək onları qarət etməkdə günahlandırılır.

Belə ki, o, sentyabrın 22-də S.S.Axundov küçəsində Nərmin Məlikməmmədovanı itələyib yıxaraq, qulağından 1 cüt sırğasını, 2 ədəd mobil telefonunu, əl çantasından 15 manat pulunu və bankomat kartını götürüb.

Bundan başqa, Əfqan Cunayev sentyabrın 29-da 7-ci mikrorayonda Mirvari Hüseynovanı da yerə yıxaraq döyüb. Onun qızıl və gümüş üzüklərini, 1 cüt qızıl sırğasını və mobil telefonunu götürərək qaçıb.

Saxlanılan Əfqan Cunayevin başqa cinayətlər törətdiyi də istisna edilmir.

# Paytaxtda gənc qızı maşın vurub öldürdü

**Bakıda ölümlə nəticələnən yol qəzası baş verib. Hüquq-mühafizə orqanlarından ANS PRESS-ə verilən məlumata görə, Nobel prospektində avtomobil iki piyadanı vurub. Maşın vuran şəxslər 1984-cü il təvəllüdlü Ağasif İsmayılov və 1991-ci il təvəllüdlü Təhminə Mustafayevadır. Onlar yolu keçərkən avtomobil zərbəsinə tuş gəliblər.**

Zərbənin təsirindən gənc qız hadisə yerində keçinib. 30 yaşlı oğlan isə xəstəxanaya yerləşdirilib. Yaralının vəziyyətinin ağır olduğu bildirilir.

# Şəmkirdə dəhşətli qətl: bacısının sevgilisini güllələdi

**Şəmkir rayonunda qətl hadisəsi baş verib. Şəmkir Rayon Polis Şöbəsindən APA-ya verilən məlumata görə, hadisə Çinarlı qəsəbəsində qeydə alınıb. Şəmkir rayon sakini Rəşid Cəlil oğlu İmanovun güllələnmiş meyiti yaşadığı mənzildən tapılıb. Həyata keçirilən əməliyyat-istintaq tədbirləri nəticəsində məlum olub ki, qətl hadisəsi sentyabrın 29-da R.İmanovun qeyri-rəsmi nikahda yaşadığı həyat yoldaşı Gülmira Abdullayevanın qardaşı Mirəzim Allahverənov tərəfindən törədilib.**

Hadisəni törədən M.Allahverənovun tutulması istiqamətində tədbirlər davam etdirilir.

ORİJİNAL AKSESUARLAR

Ucuz qiymətlərə, gözəl, keyfiyyətli hədiyyələr və ev üçün bəzək əşyaları



ünvan
"SƏDƏRƏK" TİCARƏT MƏRKƏZİ
*3-cü zona, 15-ci sıra, 40 nömrəli mağaza*

**Beynəlxalq Təhsil Mərkəzi**

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A «Nərimanov» m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**







# Avtomobildən oğurluq nömrə və silah-sursat tapıldı

**Bakıda avtomobildən oğurluq dövlət nömrə nişanı və silah-sursat götürülüb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Xətai Rayon Polis İdarəsi 37-ci polis bölməsinin əməkdaşları Bakı şəhər sakinləri - 31 yaşlı Aydın Balayevi və 28 yaşlı Tamerlan Əlizadəni şübhəli şəxs qismində saxlayıblar.**

İlkin araşdırma zamanı Aydın Balayevin idarə etdiyi "Hunday" markalı avtomobilin dövlət nömrə nişanlarının oğurlanmış dövlət nömrə nişanı olması müəyyən edilib. Saxlanılan şəxs bildirib ki, avtomobili bir müddət əvvəl kirayəyə götürüb. Dövlət nömrə nişanlarını isə Yasamal rayonu ərazisində başqa bir avtomobildən oğurlayaraq, idarə etdiyi maşına bağlayıb.

Əməliyyatçılar avtomobilə baxış zamanı 1 ədəd pnevmatik tapança, 1 ədəd elektroşok aparatı, 1 ədəd durbin, 1 ədəd dəmir dəyənək, 1 ədəd bıçaq, gözyaşardıcı qaz, idman papaqları və digər əşyalar aşkarlayaraq maddi sübut kimi götürüblər. Həmçinin saxlanılan şəxslərin üstündən müxtəlif çəkilərdə narkotik maddə olan heroin də tapılıb.

İstintaq araşdırmaları zamanı saxlanılan şəxslər bildiriblər ki, avtomobildə gəzdirdikləri əşyaları bir müddət əvvəl əldə ediblər. Polis əməkdaşları isə ehtimal edir ki, saxlanılan şəxslər qanunsuz əldə edib saxladıqları əşyalarla cinayət əməlləri törədiblər. Odur ki, gördüyünüz bu şəxsi tanıyanlardan və ya onun cinayət əməllərindən zərər çəkən şəxslərdən Xətai Rayon Polis İdarəsinə məlumat vermələri xahiş olunur. Faktla bağlı cinayət işi açılıb, saxlanılan şəxslərin ətrafında əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Ucarda və Şəkidə intihar

**Ucarda 19 yaşlı gənc intihar edib. Ucar Rayon Polis Şöbəsindən APA-nın yerli bürosuna verilən məlumata görə, hadisə oktyabrın 2-dən 3-nə keçən gecə şəhərin Səməd Vurğun küçəsi, ev 29-da qeydə alınıb.**

1995-ci il təvəllüdlü şəhər sakini İsgəndərov Firudin Artur oğlu özünü yaşadığı evin həyətindəki qoz ağacından asaraq intihar edib. İntiharın səbəbi Ucar Rayon Prokurorluğu tərəfindən araşdırılır.

Şəkidə isə 18 yaşlı gənc intihara cəhd edib.

Şəki Rayon Mərkəzi Xəstəxanasından (RMX) verilən məlumata görə, oktyabrın 3-də saat 02:00 radələrində Şəki şəhəri 17-ci rayon, Şərbablar küçəsi 45 ünvanında yaşayan 1996-cı il təvəllüdlü Murad Mustafa oğlu Paşayev bədəninin boğaz nahiyəsinin sıyrılmış, hər iki biləyinin isə qismən kəsilmiş yaraları ilə xəstəxananın reanimasiya şöbəsinə daxil olub.

Həkim araşdırmasından sonra məlum olub ki, 18 yaşlı Murad Paşayev intihar etmək məqsədilə hər iki qolunun bilək nahiyəsinə ülgüclə xəsarət yetirib, daha sonra isə özünü asmaq istəyib. Son anda ölümün pəncəsindən valideynləri tərəfindən xilas edilən Murad Paşayev xəstəxanaya çatdırılıb.

Gecə saatlarında Şəki rayon hüquq-mühafizə orqanı əməkdaşlarının Murad Paşayevlə apardıqları ilkin sorğu zamanı o, hansı səbəbdən intihar etmək istəməsi barədə ifadə verməkdən imtina edib. Həkimlərin səyinə baxmayaraq, xəstəxanada qalmaqdan imtina edən Murad Paşayev evə gedərkən valideynlərinə yenidən intihar edəcəyini deyib.

Hadisə ilə bağlı Şəki Rayon Prokurorluğunda araşdırma aparılır.

**Elan**

**Abdullayev Roman Sabir oğlunun adına olan, "Muğan Bank"a aid pul çeki itdiyi üçün etibarsız sayılır.**

# İranlı tələbələrin aksiyasına ATU-dan reaksiya gəldi

## Rektor köməkçisi: “İran ATU-ya, bizim mütəxəssislərə qısqanclıqla yanaşır”

**Azərbaycan Tibb Universitetinin (ATU) İrandan olan tələbələri dünən öz ölkələrinin Azərbaycandakı səfirliyi qarşısında aksiya keçiriblər. Təqribən 45-50 dəqiqə davam edən aksiyanın səbəbi İranın ATU-nun verdiyi diplomları tanımaqdan imtina etməyə hazırlaşmasıdır.**



Tələbələr həmin gün veteninfo.az saytına açıqlamalarında bildiriblər ki, bir neçə gün öncə İran Təhsil Nazirliyinin əməkdaşı İran saytlarına açıqlamasında Azərbaycanda Tibb Universitetinin diplomunu bir həftənin içində pulla almağın mümkün olduğunu deyib və bu səbəbdən də ATU-nun diplomlarının rəsmi İran tərəfindən tanınmamasına çağırıb.

Tələbələr isə buna etiraz edərək bildirib ki, onlar ATU-da neçə illərdir oxuyurlar və ATU-nun verdiyi diplomlar beynəlxalq aləmdə tanındığı halda, İran hansı səbəbdən diplomları tanımaya bilər?

Aksiyaçıların nümayəndəsi səfirliyin binasına daxil olsa da, hər hansı nəticə əldə olunmadan geri dönüb və aksiya polisin müdaxiləsi ilə dağıdılıb.

**ATU rektorunun köməkçisi Rafiq Bayramov “Yeni Müsavat”a açıqlamasında aksiyadan media vasitəsilə xəbər tutduğunu deyib. Müsahibimiz aksiya iştirakçılarının səsləndirdiklərini absurd şayiə adlandırıb. Onun sözlərinə görə, baş verənlərə səbəb İranın ATU-ya, ATU-dakı mütəxəssislərə qısqanclıqla yanaşmasıdır:** “Ona görə də istəmirlər tələbələr burda oxusunlar. Diplomu 1 həftə ərzində almaq kimi iddialar isə ümumiyyətlə, cavablandırılmağa dəymir. Çünki çox absurddur. Bunun belə olmadığını hamı bilir”.

Müsahibimiz “bəlkə İranın belə bir mövqe sərgiləməsinə Azərbaycandan bu ölkəyə xəstə axınının artması nəticəsində bizdə normal həkimlərin olmaması ilə bağlı yaranan rəy səbəb olub” sualına cavabda isə bu təəssüratın da yanlış olduğunu dedi. Müsahibimizin sözlərinə görə, hazırda ATU-nun nəzdində elə klinikalar, o klinikalarda isə elə şərait var ki, İranın çox yerində elə klinika və mütəxəssis yoxdur: “Bu, şayiə və qısqanclıqdan yaranmış bir açıqlamadır”.




### Adil Qeybulla: “İranlı tələbələrin qavraması, savadı zəifdir”

**ATU-nun professoru Adil Qeybulla da bildirdi ki, İran təbəbəti ilə Azərbaycanınkı arasında müəyyən fərqlər var. Müsahibimizin sözlərinə görə, indiyə qədər onlar Qərb təhsili ilə işləyiblər:** “Azərbaycanda həkim işləmək üçün Tibb Universitetini qurtarandan sonra bir il internaturada oxumaq kifayət idi. Amma Qərbdə rezidentura baza tibb təhsilindən sonrakı səviyyədir. Rezidentura ayrı-ayrı sahələr üzrə müxtəlif müddətləri əhatə edir - 2 ildən 9 ilə qədər. Azərbaycan da keçən ildən etibarən rezidentura sisteminə keçib və Qərb təbabətinin standartlarını tətbiq edir”.

**Konkret son olayla bağlı A.Qeybulla dedi ki, ümumən İrandan gələn tələbələr zəif olurlar. Müsahibimiz onların güzəştli şərtlərlə ATU-ya qəbul olunduğunu yada saldı:** “İrandan, Türkiyədən gələn tələbələrin qavraması, savadı zəifdir. Oxumağa meyl etmirlər. Hansısa imtahanda onlara təpki olanda isə səfirliklər işə qarışır. İran məsələni o cür yox, başqa cür qoysun. Zəif tələbələrin ali məktəbə qoyulmasının qarşısını alsın”.

**A.Qeybulla hesab edir ki, dövlətlər arasında etimad mühiti olmalıdır. Professorun sözlərinə görə, bizim tələbələr orta məktəbi qurtarıb, birbaşa xaricdə ali məktəbdə oxuya bilmir. Bunun üçün hazırlıq mərhələsi keçməli, dil bilgisinə malik olmalı, sonra orda təhsil almalıdırlar:** “Yeganə yol qəbul imtahanlarını ləğv etmək, Boloniya sisteminə keçməkdir. Dünya universitetləri kimi sistemə keçməliyik. Onda hamı Azərbaycan təhsil sistemi ilə hesablaşacaq”.

**İmtahanlarda iştirak etdiyini deyən A.Qeybulla həmçinin xatırlatdı ki, əcnəbi tələbələr arasında savadsızlar çoxdur:** “Məsələn, Türkiyədə oxumaq çətindir. Xaricdən bura təhsil almağa gələn tələbələr də öz ölkəsində daxil ola bilməyənlərdir. Türkiyədə oxumaq çətindir. Şərtləri ağırdır. Ona görə də onların çoxu MDB məkanında oxuyurlar. MDB məkanında olan bəzi ali məktəblərdə güzəştli şərtlər həyata keçirilir”.

**Mövzu ilə bağlı İranın Bakıdakı səfirliyindən açıqlama almaq mümkün olmadı.**

❑ **Sevinc TELMANQIZI**



# Neft sektorunda ixtisarlar davam edir

## İl ərzində ümumilikdə 14 min neftçinin ixtisarı nəzərdə tutulub, bir neçə müəssisədə, o cümlədən Magistral Neft Kəmərləri İdarəsində ixtisar gözlənilir

**Heydər Əliyev adına Neft Emalı Zavodunda kütləvi ixtisarlar başlanıb. Zavodun rəhbərliyi 280 nəfərdən çox işçiyə işdən azad olunması ilə bağlı xəbərdarlıq edib. Bu barədə mətbuata açıqlamasında Neftçilərin Hüquqlarının Müdafiə Təşkilatının sədri Mirvari Qəhrəmanlı məlumat verib.**

Onun sözlərinə görə, bildirişlər Dövlət Neft Şirkətində aparılan ixtisarlar çərçivəsində həyata keçirilir. “Dövlət Neft Şirkətində ümumi olaraq, işçilərin sayını azaltmaq siyasəti aparılır. Neft Emalı Zavodundakı ixtisarlar da həmin siyasətin davamıdır. Bizi narahat edən məsələlərdən biri bildiriş alan işçilərin əksəriyyətinin qadınlar olmasıdır. İşçilərə başqa işlər təklif olunmayıb. Onlara bildiriblər ki, əgər bir ay müddətində işdən çıxmaq haqqında ərizə yazsalar, onlara əmək haqqının 5 misli qədər kompensasiya veriləcək. Onu da qeyd edim ki, ixtisar gedə-gedə bəzi hallarda kənardan işçi qəbulu müşahidə olunur” deyə, o bildirib.

**M.Qəhrəmanlının sözlərinə görə, ARDNŞ-də ixtisarların aparılmasının başlıca səbəblərindən biri neft hasilatının aşağı düşməsidir:** “İndiki hasilatla əslində 10-15 min işçi saxlanılmalıdır. Amma qurumda əməliyyatların çoxu əlyazma ilə həyata keçirilir, yəni avtomatlaşdırılmayıb, ona görə də çox işçi saxlamağa məcburdurlar”.

**O qeyd edib ki, köhnə yataqlarda əməliyyat şirkətləri yaradılıb, onlar da hasilatın artırılmasının öhdəsindən gələ bilmirlər. Vaxtilə iki neft emalı zavodunun illik istehsal gücü 22 milyon ton neftə hesablanmışdı:** “İndi isə bu iki zavod Dövlət Neft Şirkətinin hasil etdiyi 7 milyon ton neft emalı ilə məşğuldur. Hələ həmin xam neftin bir qismi Novorossiyski kəməri ilə xaricə satılırdı. Deməli, illik 7 milyon tondan da az neft emal edilir. Hasilat da, istehsal gücü də aşağı düşüb, bu qədər işçi saxlamaq isə kommersiya baxımından əlverişsiz olub”.

**M.Qəhrəmanlı musavat.com-a açıqlamasında isə vurğulayıb ki, ixtisarların ilin sonuna qədər davam etməsi gözlənilir:** “Çünki rəsmilər bildiriblər ki, ilin sonunadək neftçilərin sayının 45 min nəfərə qədər azaldılması nəzərdə tutulub. İlin əvvəlində bu rəqəm 59 min nəfər idi. İxtisarlar davam edəcək”.

Qeyd edək ki, ixtisar barədə xəbərlər təkcə Neft Emalı Zavodunda deyil, digər müəssisələrdə də gözlənilir. Bir neçə müəssisədə artıq bildirişlərin hazırlandığı və bir neçə günə işçilərə təqdim ediləcəyi bildirilir. Bu müəssisələrin arasında Magistral Neft Kəmərləri İdarəsinin də adı çəkilir. Müəssisənin yüzdən artıq işçisinin ixtisar olunacağı söylənilir. Yayılan xəbərlərlə bağlı iki gün ərzində Dövlət Neft Şirkətindən açıqlama almaq mümkün olmayıb.

❑ **RÖYA**

# Bakı məktəbində rüsvayçılıq: şagirdin anası müəllliməni vurdu

## “Yaxın günlərdə materiallar araşdırmaq üçün məhkəməyə veriləcək”

**Bakı məktəbində müəllim nüfuzunu ləkələyəcək xoşagəlməz hadisə baş verib. Belə ki, sentyabrın 30-da Əmircan qəsəbəsində yerləşən 97 saylı məktəbdə işləyən 49 yaşlı müəllimə Rima Bəşirova şagirdlərin gözü önündə valideyn tərəfindən şillələnib.**

Suraxanı Rayon Polis İdarəsinin 31-ci bölməsindən bildiriblər ki, Azərbaycan dili və ədəbiyyatı müəllimini onun şagirdinin Böyükxanım adlı anası təhqir edib. Səhər saat 8-də qadın məktəbdə Rima Bəşirovanın uşaqlara dərslik paylamaması ilə bağlı dava salıb. “O müəllimi təhqir edib və şillə vurub. Biz məktəbə gəldikdə Rima Bəşirovanın üzündə onun barmaq izləri hələ də qalmışdı”, - deyə, polisdən bildiriblər.

Polisin sözlərinə görə, valideyn özünü günahkar hesab etmir və üzr istəməyə hazırlaşmır. O, polisə qarşılıqlı ərizə verərək, Bəşirovanı öz oğlunu - beşinci sinif şagirdini bir neçə dəfə təhqir etməkdə və uşağın pencəyindən dartaraq, onu hamının gözü qarşısında küncdə saxlamaqda ittiham edir.

Polislər qadına yuxarıda sadalananların müəllimi döymək üçün bəhanə olmadığını izah etməyə çalışsalar da, bu fayda verməyib. Qadın üzr istəmək fikrində belə deyil və hətta qohumlarını da məktəbdə müəllimin üstünə göndərib.

“Yaxın günlərdə işin materialları araşdırılmaq üçün məhkəməyə veriləcək”, - deyə, polisdən bildiriblər.

Bununla yanaşı, valideynin hərəkətləri polis əməkdaşını da təəccübləndirib və o, bunları deyib: “Bizim üçün bu təhqir deyildi - bu, məktəb müəllimləri arasında adi praktika idi. Pis davranışa görə şagirdi küncdə saxlardılar. Bu heç də təhqir deyil. Yadımdadır, küncdə dayandığımız vaxt biz hətta sinif şagirdlərimizə dil çıxarır, bizə gülənləri hədələyirdik. Lakin müəllimdən incimək... İndiki validyenlər hətta ağıllarına belə gətirmirlər ki, onların uşaqları özünü pis aparıb”. (vesti.az)



YENİ MÜSAVAT

Son səhifə

N 247 (5956) 4 oktyabr 2014

# Pizzaçılar artıq İtaliyada pizza satmaq istəmir



Pizza deyilən kimi ağla gələn ilk ölkə olan İtaliya artıq pizza şəbəkələrinin tərcihi sırasında deyil. Aparılan bir araşdırmaya görə, iri pizza firmaları artıq İtaliyada şöbə açmağa tərəddüd edir. Buna səbəb İtaliyanın pis ölkə olması deyil. Sadəcə, iş adamları hesab edirlər ki, pizzanın vətənində yeni pizza restoranı açmaq perspektiv vəd etmir. ABŞ-ın ən böyük pizza şəbəkəsi olan "Pizza Hut"dan isə bildiriblər ki, İtaliya onların qlobal marka keçmişinə uyğun gəlmir. İtaliyada pizza bazarı keçən il ABŞ-ı ötsə də, son beş ildə göstəricilər dəyişib. Belə ki, 2008-2013-cü illərdə ABŞ-da pizza bazarı 3 faiz artıb və illik qazanc 37.5 milyard dollara çatıb. Bunun əvəzində isə İtaliyada satışlar 10 faiz azalıb. Bununla belə, adambaşına düşən pizza xərclərinə görə italiyalılar amerikalıları ötüb. İtaliyalılar keçən il pizza restoranlarında adambaşına 457 dollar xərclədikləri halda, ABŞ-da bu rəqəm 119 dollar olub.



## Qadınların ən çox danışdığı yalanlar üzə çıxıb

Qadınların ən çox danışdığı yalanların yahısı bəlli olub. Araşdırma zamanı üzə çıxıb ki, qadınların çoxu həqiqi çəkiləri haqqında yalan danışmağa daha çox meylli olurlar. Qadınlar 30 yaşını keçdikdən sonra yaşını dayandırmaq istəyərlər və buna görə yaşla bağlı xırda yalanlara hər zaman əl atırlar. Bir də qadınlar "heç yaşını vermirsən" sözünü eşitməkdən çox xoşlanırlar. Yalan olsa belə...

"Neçə bədən geyinirsiz?" sualına qadınlar 40 geyinsə də, 38 deyər və həmin geyimi güclə əyninə keçirməyə çalışarlar.

Qadınlar da seks həyatının incəliklərini rəfiqələri ilə danışmağı sevərlər. Qadın həyat yoldaşı ilə seks həyatının nə qədər möhtəşəm, nə qədər romantik olduğunu desə də, bilin ki, bu, sadəcə onun gözlədiyi və xəyalıdır. Hamının uşağı çox bacarıqlı və zəkalıdır. Qadınlar uşağı elə olmasa da, yenə övladını "ən yaxşı" olaraq təqdim etməyə çalışarlar. Analıq dünyanın ən gözəl duyğusu və əyləncəli işidir. Analar "Ana kimi nə qədər xoşbəxtsən" sualına yaşadıqları hər cür çətinlikləri unudaraq "çox", - deyə cavab verərlər.

# Avstraliya "McDonalds"ı belə dəyişdirdi



Avstraliyanın Kasl-Hill şəhərində ilk dəfə qurmanlar üçün "McDonalds" restoranı açılıb. Burada ənənəvi menyudan fərqli olaraq, müştərilərə yeni yeməklər təqdim edilib. Servis sistemi yaxşılaşdırılmış restoranda müştərinin növbədə dayanması vacib deyil. Yeməyi sifariş edib, sonra masa arxasında gözləmək mümkündür. Bundan başqa, plastik məcməyilər ləğv olunub, onların əvəzinə daha şıq, taxtadan qab quraşdırılıb. Kartof friləri isə metal səbətlərdə verməyi qərarlaşdırıblar. Burqerlər yeni, daha öncəkilərdən fərqli reseptlərlə hazırlanıb. Bundan başqa, yeməklərin içinə istənilən komponenti əlavə etmək və ya ordan yığışdırmaq mümkündür.

## Diş həkiminə getdi, bıçaqla həkimə hücum etdi



Hollivudun aktyoru Çarli Şin silahlı hücumun əsas qəhrəmanı olmağı bacarıb. Belə ki, Los-Ancelesdəki bir klinikada diş həkiminə bıçaqla hücum edib. Aktyor diş ətindəki kəskin ağrılara görə həkimə getsə də, müayinə zamanı özünü aqressiv aparıb. Belə ki, öncə tibb bacısını vurub, ardınca əlindəki bıçaqla həkimin dalınca düşüb.

49 yaşlı aktyorun cangüdəni isə deyib ki, o, həkimə gəlməmişdən əvvəl kokain qəbul etdiyi üçün narkotikin təsiri altında olub. Hazırda polis aktyorla bağlı cinayət işinin qaldırılması məsələsinin üzərində düşünür. Öncə polis baş vermiş hadisənin bütün təfərrüatlarını üzə çıxarmaq istəyir. Ardınca iş şəhər məhkəməsinə veriləcək.

Xatırladaq ki, 2010-cu ildə də aktyor öz həyat yoldaşı Bruk Müllerə hücum etdiyi üçün cinayət məsuliyyətinə cəlb edilmişdi.

## Bu dayanacaq depressiyadan xilas edir

İsveçin cənubundakı Umeo şəhərində dayanacaqlar xüsusi rəngli panellərlə təchiz olunub. Bu isə orda gözləyən sərnişinlərin xoş əhvalı üçün nəzərdə tutulub. Çünki sözügedən işıq yerli sakinləri qış depressiyasından çıxarmağa hesablanıb. 26 noyabrdan etibarən şəhərin 30-a yaxın dayanacağında bu cür sistem quraşdırılıb. Bu işi həyata keçirən kampaniya rəhbərliyi isə bəyan edib ki, qışda hər kəs kədərlənir. Amma əlavə porsiya işıq onların əhvalına müsbət mənada təsir edir. Depressiyadan çıxmaq istəyən şəxsin, sadəcə olaraq, həmin panelə bir neçə saniyə baxması kifayətdir. Kampaniya bu qərara şəhər sakinlərini depressiyadan çıxarmaq üçün gəlib. Çünki qışda regionda az işıq olur, günün işıqlı vaxtı cəmi 4 saat davam edir. Çox adam isə günün işıqlı vaxtını görməyə imkan tapmır.

## Qoroskop




QOÇ - Qarşınıza qoyduğunuz məqsədlərə çatmaq üçün bütün gücünüzü işə salmalısınız. Günün ikinci yarısı fəaliyyətlə bağlı geniş imkanlarınız açılacaq. Bu isə maddi durumunuza müsbət təkan verəcək.

BUĞA - Risk etməyə lüzum yoxdur. Çünki hazırkı durumunuz ifrat əsəbiliyinizdən xəbər verir. Hirsli başla isə hansısa uğura çatmaq absurddur. Probleminizin həllini məmurlardan deyil, Tanrıdan istəyin.

ƏKİZLƏR - Kifayət qədər düşərli zaman kəsiyindən keçəcəksiniz. Bu prosesi daha ideal səviyyəyə yüksəltmək üçün ətrafınıza sadiq tərəfdaşlar toplamalısınız. Günün "ən varlı" zodiak işarəsi də siz olacaqsınız.

XƏRÇƏNG - Planetlərin bürcünüzdəki neqativ düzülüşü saat 12-yə qədər bütün ciddi işləri təxirə salmağı tövsiyə edir. Əks təqdirdə, çoxsaylı uğursuzluqlarla rastlaşacaqsınız. Ətrafınızdakılar tərəfindən sevilməyə çalışın.

ŞİR - Passivlik müstəvisində qərar tutan ailə-sevgi münasibətlərinə yenidən baxın. Mümkün qədər bütün neqativlikləri minimuma endirin. Əsəbi vaxtlarınızda dostlarınız arasında, təbiət qoynunda sakitləşməyə çalışın.

QIZ - Ətrafınızdakı gərginlikdən usanmayın. Çünki bu gün sizi narahat edən əksər sahələrdə - qarşılıqlı münasibətlərdə, maliyyə məsələlərində, həmçinin fəaliyyətdə müsbət nəticələr əldə edəcəksiniz.

TƏRƏZİ - Maddi sıxıntılarınızın azalacağını bildirən ulduzlar səmimi və təbii olmağı, reallığa düzgün qiymət verməyi məsləhət görür. Ümumiyyətlə isə fərdi fəaliyyətinizdə böyük dönüş baş qaldırmalıdır.

ƏQRƏB - Qarşınızda duran vəzifələrin öhdəsindən gəlmək, sizə güvənən insanların etimadını qazanmaq başlıca vəzifənizə çevrilməlidir. İş yerini dəyişmək fikrinə düşməyin. Axşam səhhətinizə fikir verin.

OXATAN - İxtiyarınıza olduqca məsuliyyətli bir vaxt düşüb. Gün boyu çoxlu sayda yeniliklərin şahidi olacaq, maraqlı təkliflər alacaqsınız. Proseslərə neytral şəkildə yaxınlaşmaqla uğurlarınızı yaxınlaşdıra bilərsiniz.

OĞLAQ - Xırda maliyyə problemlərinə görə narahat olmayın. Çünki bu istiqamətdə uğurlarınız yaxınlaşmaqdadır. Hazırda əsas məqsədi işgüzar sövdələşmələrə yönəldin ki, perspektivlərinizə yol açılsın.

SUTÖKƏN - Saat 13-ə qədərki vaxtı səbrlə başa vursanız, qalan saatlarda hansısa xoşagəlməzlik olmayacaq. Çünki ulduzlar şəxsi işlərinizdə böyük dönüş yaratmaq istəyir. Sizə sadəcə, əzmkarlığı artırmaq lazımdır.

BALIQLAR - Ulduzlar günboyu maraqlı insanlarla görüşəcəyinizi bəyan edir. Bu, işgüzar əməkdaşlıq da ola bilər, dostluq-yoldaşlıq da. Tərəfdaşlarınıza qərəzli şəkildə yanaşmayın, yalan vədlər verməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 20 yaşlı qız 237 kiloya çatdı



İzmirdə 20 yaşında olan Emel Alyafın çəkisi 237 kiloya qədər artıb. Şişmanlıqdan əziyyət çəkən gənc qız daha öncə müalicəsini yarımçıq qoyduğu üçün sürətlə kökəlib və hazırda yeriyə bilmir. Emel obezite xəstəliyindən əziyyət çəkən şəxslərə media vasitəsilə mesaj göndərib və deyib ki, heç vaxt müalicələrini yarımçıq qoymasınlar: "Türkiyədə hər şeyin çarəsi tapılır. Ümid edirəm, mənim bu xəstəliyimin əlacı da tapılar. Sadəcə arıqlamaq, hamı kimi qaçmaq istəyirəm. Hətta yerimdən təkbaşına qalxa bilmirəm. Anamın köməyi ilə həyatıma davam edirəm. O olmasa ortada qalardım".

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.600